Yeddinci çağırış

# AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİ İCLASLARININ

# PROTOKOLLARI VƏ STENOQRAMLARI

Birinci sessiya
Payız

15-ci cild

13 dekabr 2024-cü il

Milli Məclisin nəşri
Bakı – 2024

Milli Məclis Aparatının
Redaksiya və nəşr işləri şöbəsində
hazırlanmışdır

# YEDDİNCİ ÇAĞIRIŞ
# AZƏRBAYCAN RESPUBLİKASI
# MİLLİ MƏCLİSİNİN
# I SESSİYASI İCLASININ

# PROTOKOLU № 16

*Milli Məclisin iclas salonu.*
*13 dekabr 2024-cü il.*

*İclasa Azərbaycan Respublikası Milli Məclisinin sədri* ***Sahibə Qafarova*** *sədrlik etmişdir.*

**İclasda Milli Məclisin 113 deputatı iştirak etmişdir.**

| | |
|---|---|
| **Qeydiyyat** | (saat 11.01 dəq.) |
| İştirak edir | 108 |
| Yetərsay | 83 |

**İclasa dəvət olunmuşlar:**

**Elnur Məmmədov**, Azərbaycan Respublikası xarici işlər nazirinin müavini.

**Hüseyn Hüseynov**, Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Hüquqi Təminat İdarəsinin rəisi.

**Azər Bayramov**, Azərbaycan Respublikası maliyyə nazirinin müavini.

**İclasın gündəliyinə aşağıdakı məsələlər daxil idi:**

1. Minatəmizləmə fəaliyyəti haqqında Azərbaycan

Respublikası qanununun layihəsi (üçüncü oxunuş).

2. "Yol hərəkəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).

3. "Fövqəladə vəziyyət və sosial xarakterli fövqəladə mühit haqqında" və "Azərbaycan Respublikasında səfərbərlik hazırlığı və səfərbərlik haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi.

4. Diplomatik xidmət haqqında Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

5. Azərbaycan Respublikasının Əmək Məcəlləsində, Azərbaycan Respublikasının Vergi Məcəlləsində, "Azərbaycan Respublikasının Konsul Nizamnaməsinin təsdiq edilməsi haqqında", "Sosial sığorta haqqında", "Dövlət qulluğu haqqında", "Azərbaycan Respublikasının diplomatik nümayəndəliklərində və konsulluqlarında xidmət keçən diplomatik xidmət əməkdaşlarının və inzibati-texniki xidməti həyata keçirən şəxslərin dövlət icbari şəxsi sığortası haqqında" və "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

6. Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

7. Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsində və "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

8. "Azərbaycan Respublikasında mənzil fondunun özəl-

ləşdirilməsi haqqında”, “Valyuta tənzimi haqqında”, “Xidməti və mülki silah haqqında”, “Əmtəə nişanları və coğrafi göstəricilər haqqında”, “Notariat haqqında”, “İcra məmurları haqqında”, “İcra haqqında”, “Lotereyalar haqqında”, “Daşınmaz əmlakın dövlət reyestri haqqında” və “Media haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

9. Azərbaycan Respublikasının Əmək Məcəlləsində, Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsində, “Əhalinin sağlamlığının qorunması haqqında”, “Yol hərəkəti haqqında”, “Qaçqınların və məcburi köçkünlərin (ölkə daxilində köçürülmüş şəxslərin) statusu haqqında”, “Tibbi sığorta haqqında”, “Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında”, “Daşınmaz əmlakın dövlət reyestri haqqında”, “Ünvanlı dövlət sosial yardımı haqqında”, “Sosial müavinətlər haqqında”, “Əmək pensiyaları haqqında”, “Təhsil haqqında”, “İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta haqqında”, “İcbari sığortalar haqqında”, “Lisenziyalar və icazələr haqqında”, “Əlilliyi olan şəxslərin hüquqları haqqında” və “Məşğulluq haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

10. “Qaz təchizatı haqqında”, “Dövlət rüsumu haqqında”, “İxrac nəzarəti haqqında”, “İxrac məqsədli neft-qaz fəaliyyətinə xüsusi iqtisadi rejimin tətbiqi haqqında”, “Elektroenergetika haqqında” və “Energetika haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi

(birinci oxunuş).

**Aşağıdakı məsələlər müzakirə edilmişdir:**

**Gündəlik haqqında.**

**Çıxış etmişdir:** Sahibə Qafarova

**Təklif:** Gündəlik qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 11.01 dəq.) |
|---|---|
| Lehinə | 108 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 109 |

Nəticə: Qəbul edildi

**1. Minatəmizləmə fəaliyyəti haqqında Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Arzu Nağıyev

**Təklif:** Qanun qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 11.04 dəq.) |
|---|---|
| Lehinə | 110 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 111 |

Nəticə: Qəbul edildi

**2. “Yol hərəkəti haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Kamal Cəfərov, Arzu Nağıyev

| | |
|---|---|
| **Təklif:** Qanun qəbul edilsin | |
| **Səsvermənin nəticələri** | (saat 11.05 dəq.) |
| Lehinə | 109 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 109 |
| Nəticə: Qəbul edildi | |

**3. “Fövqəladə vəziyyət və sosial xarakterli fövqəladə mühit haqqında” və “Azərbaycan Respublikasında səfərbərlik hazırlığı və səfərbərlik haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi.**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Arzu Nağıyev

| | |
|---|---|
| **Təklif:** Qanun qəbul edilsin | |
| **Səsvermənin nəticələri** | (saat 11.06 dəq.) |
| Lehinə | 111 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 111 |
| Nəticə: Qəbul edildi | |

**4. Diplomatik xidmət haqqında Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Əli Hüseynli, Səməd Seyidov, Vüqar Bayramov, Hicran Hüseynova, Nigar Arpadarai, Qüdrət Həsənquliyev, Tural Gəncəliyev, Musa Qasımlı, Sahib Alıyev, Zahid Oruc, Tahir Rzayev, Ramil Həsən, Aydın Mirzəzadə, Polad Bülbüloğlu, Vüqar Rəhimzadə, Hikmət Məmmədov, Elşən Musayev, Günay Əfəndiyeva

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.38 dəq.) |
| Lehinə | 111 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 112 |

Nəticə: Qəbul edildi

**5. Azərbaycan Respublikasının Əmək Məcəlləsində, Azərbaycan Respublikasının Vergi Məcəlləsində, “Azərbaycan Respublikasının Konsul Nizamnaməsinin təsdiq edilməsi haqqında”, “Sosial sığorta haqqında”, “Dövlət qulluğu haqqında”, “Azərbaycan Respublikasının diplomatik nümayəndəliklərində və konsulluqlarında xidmət keçən diplomatik xidmət əməkdaşlarının və inzibati-texniki xidməti həyata keçirən şəxslərin dövlət icbari şəxsi sığortası haqqında” və “Əmək pensiyaları haqqında” Azərbaycan Respublikasının qa-**

**nunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Musa Quliyev, Azər Əmiraslanov, Səməd Seyidov, Əli Hüseynli

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.38 dəq.) |
|---|---|
| Lehinə | 110 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 110 |

Nəticə: Qəbul edildi

**6. Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Nurlan Həsənov, Bəxtiyar Əliyev, Qüdrət Həsənquliyev

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.48 dəq.) |
|---|---|
| Lehinə | 110 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 110 |

Nəticə: Qəbul edildi

**7. Azərbaycan Respublikasının Miqrasiya Məcəl-**

**ləsində və "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Əli Hüseynli, Azər Əmiraslanov, Qüdrət Həsənquliyev

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.54 dəq.) |
| Lehinə | 108 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 109 |

Nəticə: Qəbul edildi

**8. "Azərbaycan Respublikasında mənzil fondunun özəlləşdirilməsi haqqında", "Valyuta tənzimi haqqında", "Xidməti və mülki silah haqqında", "Əmtəə nişanları və coğrafi göstəricilər haqqında", "Notariat haqqında", "İcra məmurları haqqında", "İcra haqqında", "Lotereyalar haqqında", "Daşınmaz əmlakın dövlət reyestri haqqında" və "Media haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Azər Əmiraslanov, Arzu Nağıyev, Elşən Musayev, Zahid Oruc

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.59 dəq.) |
| Lehinə | 110 |

| | |
|---|---|
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs verмədi | 0 |
| İştirak edir | 110 |

Nəticə: Qəbul edildi

**9. Azərbaycan Respublikasının Əmək Məcəlləsində, Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsində, "Əhalinin sağlamlığının qorunması haqqında", "Yol hərəkəti haqqında", "Qaçqınların və məcburi köçkünlərin (ölkə daxilində köçürülmüş şəxslərin) statusu haqqında", "Tibbi sığorta haqqında", "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında", "Daşınmaz əmlakın dövlət reyestri haqqında", "Ünvanlı dövlət sosial yardımı haqqında", "Sosial müavinətlər haqqında", "Əmək pensiyaları haqqında", "Təhsil haqqında", "İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta haqqında", "İcbari sığortalar haqqında", "Lisenziyalar və icazələr haqqında", "Əlilliyi olan şəxslərin hüquqları haqqında" və "Məşğulluq haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Musa Quliyev, Elşən Musayev, Əhliman Əmiraslanov, Zahid Oruc, Azər Əmiraslanov, Anar İsgəndərov

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.04 dəq.) |
| Lehinə | 108 |

| | |
|---|---|
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 108 |

Nəticə: Qəbul edildi

**10. “Qaz təchizatı haqqında”, “Dövlət rüsumu haqqında”, “İxrac nəzarəti haqqında”, “İxrac məqsədli neft-qaz fəaliyyətinə xüsusi iqtisadi rejimin tətbiqi haqqında”, “Elektroenergetika haqqında” və “Energetika haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Azər Əmiraslanov, Sadiq Qurbanov

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.11 dəq.) |
|---|---|
| Lehinə | 105 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 107 |

Nəticə: Qəbul edildi

**Azərbaycan Respublikası**
**Milli Məclisinin sədri** **Sahibə Qafarova**

# *MİLLİ MƏCLİSİN İCLASI*

*13 dekabr 2024-cü il. Saat 11.*

*Azərbaycan Respublikası Milli Məclisinin sədri*
***Sahibə Qafarova** sədrlik edir*

**Sədrlik edən.** Hörmətli həmkarlar, hörmətli media nümayəndələri, hamınızı xoş gördük. Bizim bu gün qonaqlarımız da var. Onları da salamlayırıq.

Hörmətli deputatlar, xahiş edirəm, qeydiyyatdan keçin. Buyurun.

| **Qeydiyyat** | (saat 11.01 dəq.) |
|---|---|
| İştirak edir | 108 |
| Yetərsay | 83 |

İclasa başlaya bilərik.

Hörmətli həmkarlar, xahiş edirəm, gündəliyə də münasibət bildirin, sizə paylanıb.

| **Səsvermənin nəticələri** | (saat 11.01 dəq.) |
|---|---|
| Lehinə | 108 |

| | |
|---|---|
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 109 |
| Nəticə: Qəbul edildi | |

Gündəlik qəbul edildi, çox sağ olun.

Hörmətli həmkarlar, gündəliyin ilk iki məsələsi möhtərəm cənab Prezidentin bir məktubu ilə Milli Məclisə daxil olub və üçüncü oxunuşa təqdim edilir. Qanun layihələri mahiyyətcə bir-birinə yaxındır.

1-ci məsələ Minatəmizləmə fəaliyyəti haqqında qanun layihəsidir, 2-ci məsələ isə "Yol hərəkəti haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Odur ki, təklif edirəm, ötən iclaslarda olduğu kimi, biz əvvəlcə qanun layihələrinin təqdimatını dinləyək, sonra digər prosedurlara keçək.

1-ci məsələyə Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsində baxılmışdır. Layihəyə dair məlumat vermək üçün komitənin sədri hörmətli Arzu Nağıyevə söz verirəm. Arzu müəllim, buyurun.

**Arzu Nağıyev,** *Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri.*

Təşəkkür edirəm, hörmətli xanım sədr. Minatəmizləmə fəaliyyəti haqqında Azərbaycan Respublikası qanununun layihəsi birinci və ikinci oxunuşlarda müzakirə edilmişdir. İndi üçüncü oxunuş üçün plenar iclasa təqdim olunur.

İkinci oxunuşda bir sıra millət vəkilləri – Vüqar Bayramov, Nizami Səfərov, Pərvanə Vəliyeva, Siyavuş Novruzov, Məlahət İbrahimqızı, Aydın Hüseynov öz təklifləri ilə çıxış etmişdilər. Bu hörmətli deputatlarımızın hər biri

ilə fərdi söhbətlərimiz olmuşdur. Eyni zamanda, üçüncü oxunuş üçün də komitəyə dəvət olunmuşlar və yekdilliklə qanun layihəsi üçüncü oxunuş üçün plenar iclasa tövsiyə edilmişdir.

Komitə iclasında Dövlət quruculuğu, inzibati və hərbi qanunvericilik şöbəsi və ANAMA-nın rəhbərliyi də iştirak etmiş və sənədə müsbət rəy bildirmişlər. Qanun layihəsi üçüncü oxunuş üçün Milli Məclisə təqdim olunur və səs verməyinizi xahiş edirəm.

**Sədrlik edən.** Arzu müəllim, çox sağ olun. Hörmətli həmkarlar, 2-ci məsələyə Hüquq siyasəti və dövlət quruculuğu komitəsində baxılmışdır. Məsələyə dair məlumat vermək üçün komitənin üzvü hörmətli Kamal Cəfərova söz verirəm. Kamal müəllim, buyurun.

**Kamal Cəfərov,** *Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü.*

Çox sağ olun, hörmətli xanım sədr. Qanun layihəsində hər hansı bir dəyişiklik olmadığı üçün olduğu kimi səsə qoyulmasını xahiş edirəm. Çox sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Kamal müəllim. Bu məsələyə, Arzu müəllim, sizin komitənizdə də baxılmışdır. Xahiş edirəm, komitənin rəyini təqdim edin.

**Arzu Nağıyev.** Təşəkkür edirəm, xanım sədr. Komitənin rəyi müsbətdir, üçüncü oxunuş üçün tövsiyə olunub. Səs verməyinizi xahiş edirəm.

**Sədrlik edən.** Çox sağ olun. Sualı, sözü olan yoxdur. Mən məsələni səsə qoyuram. 1-ci məsələdəki qanun layihəsinə, xahiş edirəm, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 11.04 dəq.) |
|---|---|
| Lehinə | 110 |

| | |
|---|---|
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 111 |
| Nəticə: Qəbul edildi | |

Qanun layihəsi üçüncü oxunuşda qəbul edildi.

İndi isə 2-ci məsələni səsə qoyuram. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 11.05 dəq.) |
|---|---|
| Lehinə | 109 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 109 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi üçüncü oxunuşda qəbul edildi.

Hörmətli həmkarlar, biz gündəliyin 3-cü məsələsinə keçirik. Bu məsələ "Fövqəladə vəziyyət və sosial xarakterli fövqəladə mühit haqqında" və "Azərbaycan Respublikasında səfərbərlik hazırlığı və səfərbərlik haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsidir.

Qeyd edim ki, layihə uyğunlaşdırma xarakteri daşıyır və ona görə də müvafiq Konstitusiya qanununun tələbinə əsasən bir oxunuşda baxılıb qəbul ediləcək. Layihəyə Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsində baxılmışdır. Ona görə də Arzu müəllim, mən yenə də Sizə söz verirəm. Buyurun.

**Arzu Nağıyev.** Təşəkkür edirəm, xanım sədr. Burada 2

qanunda dəyişiklikdən söhbət gedir. Sizin də qeyd etdiyiniz kimi, dəyişikliklər uyğunlaşdırma xarakterlidir.

"Fövqəladə vəziyyət və sosial xarakterli fövqəladə mühit haqqında" Qanunun "Sosial xarakterli fövqəladə mühitin aradan qaldırılması üzrə tədbirlər" maddəsində dəyişiklik edilmişdir. Eyni zamanda, "Azərbaycan Respublikasında səfərbərlik hazırlığı və səfərbərlik haqqında" Azərbaycan Respublikası Qanununun 4-cü maddəsində dəyişiklik edilir. Uyğunlaşdırma xarakteri daşıyan dəyişikliklərə komitədə baxılıb, plenar iclasa tövsiyə olunub. Səs verməyinizi xahiş edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Arzu müəllim. Sözü olan, deyəsən, yoxdur, heç kim yazılmayıb. Ona görə də mən qanun layihəsini səsə qoyuram. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 11.06 dəq.) |
|---|---|
| Lehinə | 111 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 111 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun qəbul edildi.

Hörmətli həmkarlar, bizim qalan məsələlərimiz hamısı birinci oxunuşda olan qanun layihələridir. Ona görə də xahiş edirəm, müzakirə zamanı birinci oxunuşun tələblərinə riayət edəsiniz.

Qeyd edim ki, gündəliyin növbəti 2 məsələsi möhtərəm cənab Prezidentin bir məktubu ilə Milli Məclisə daxil olub və mahiyyətcə bir-birinə yaxındır. 4-cü məsələ Diplomatik

xidmət haqqında qanun layihəsidir, 5-ci məsələ isə Əmək Məcəlləsində, Vergi Məcəlləsində, "Azərbaycan Respublikasının Konsul Nizamnaməsinin təsdiq edilməsi haqqında" Qanunda və digər 4 qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Onu da deyim ki, bu məsələlər ilə əlaqədar Azərbaycan Respublikası xarici işlər nazirinin müavini hörmətli Elnur Məmmədov və nazirliyin Hüquqi Təminat İdarəsinin rəisi hörmətli Hüseyn Hüseynov da iclasımızda iştirak edirlər.

Hörmətli həmkarlar, mən təklif edirəm ki, biz əvvəlcə qanun layihələrinin təqdimatını dinləyək, daha sonra onları birlikdə müzakirə edək. Səsvermələri isə, həmişə olduğu kimi, ayrılıqda keçirəcəyik.

4-cü məsələyə Hüquq siyasəti və dövlət quruculuğu komitəsində baxılmışdır. Məsələyə dair məlumat vermək üçün komitənin sədri hörmətli Əli Hüseynliyə söz vermək istəyirəm. Buyurun, Əli müəllim.

**Əli Hüseynli,** *Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri.*

Çox sağ olun. Hörmətli xanım sədr, hörmətli deputat həmkarlar. Cənab Prezident tərəfindən bu gün müzakirəmizə Azərbaycanda diplomatik xidmət orqanlarının funksiyaları və təşkilati qaydalarını, bu xidmətin əməkdaşlarının hüquqi vəziyyətini, maddi və sosial məsələlərini tənzimləyən yeni və mühüm bir qanun layihəsi təqdim edilmişdir.

Bir çox sahələrdə olduğu kimi, müstəqil Azərbaycanın müasir diplomatik xidmətinin də təməli Ulu Öndər Heydər Əliyevin 1993-cü ildə hakimiyyətə qayıdışından sonra qoyulmuşdur. Təəssüflər olsun ki, o dövrə qədər ölkədə ordu quruculuğu ilə yanaşı, xarici siyasət və diplomatik

xidmət də bərbad vəziyyətdə idi. Ulu Öndər Heydər Əliyev SSRİ rəhbərliyindən ədalətsizcəsinə kənarlaşdırıldıqdan sonra erməni lobbisi baş qaldıra bilmişdi. O dövrdəki vətənpərvərlik hissini itirmiş qorxaq və xəyanətkar Azərbaycan rəhbərliyi onların qarşısında aciz idilər. Əslində, Qərbi Azərbaycandan soydaşlarımızın deportasiyası və Qarabağın işğalının ilk mərhələsi həm də bu səbəbdən baş verirdi.

Sonrakı dövrdə, qanunsuz AXC–Müsavat hakimiyyəti dövründə isə vəziyyət daha faciəvi oldu. Qeyri-peşəkar və gerizəkalı Xarici İşlər Nazirliyi rəhbərliyinin fəaliyyətsizliyi nəticəsində Azərbaycan torpaqlarının işğalı ilə bağlı dünya ictimaiyyətində tamamilə yanlış fikir formalaşır, Azərbaycana qarşı sanksiyalar tətbiq olunurdu. Həmin illərdə ölkəmizin imicinə yarıtmaz xarici siyasət nəticəsində çox ciddi və aradan qaldırılması üçün uzun illər lazım gələcək zərərlər yetirildi. Nəinki dünya ölkələri, hətta region dövlətləri ilə, Türkiyə, Rusiya, İran ilə münasibətlər anlaşılmaz səviyyəyə gətirilib çıxarıldı.

Bütün bu faciələrin fonunda həmin dövrdə Naxçıvanda rəhbərlikdə olan Heydər Əliyev isə yüksək diplomatiya nümayiş etdirərək heç bir konflikt yaratmadan sovet qoşunlarının Naxçıvandan çıxarılmasına nail oldu, Türkiyə və İranla isə dostluq və mehriban qonşuluq münasibətləri yaradaraq Naxçıvanı işğaldan xilas etdi.

Beləliklə, Heydər Əliyevin Azərbaycan rəhbərliyinə qayıdışı ilə müstəqil Azərbaycanın xarici siyasətində dönüş yaradıldı və müasir diplomatiyanın, diplomatik xidmətin əsası qoyulmuş oldu.

İndiki dövrdə cənab Prezident İlham Əliyev tərəfindən də bu siyasət daha da inkişaf etdirilmişdir. Ərazi bütöv-

lüyümüzün və suverenliyimizin tam təmin olunması uğurlu hərbi və döyüş taktikası ilə yanaşı, həm də uzaqgörən xarici siyasətin vəhdəti nəticəsində baş tutmuşdur. Bütün bu dövr ərzində Azərbaycan xalqı və ictimaiyyəti ölkə Prezidentinin xarici siyasətində və diplomatiyasında hücum taktikasının uğurunu müşahidə etdi.

Hörmətli sədr, hörmətli həmkarlar, heç şübhəsiz ki, bu siyasətin həyata keçirilməsi mükəmməl diplomatik xidmətin təşkilinə və diplomatik xidmət əməkdaşlarının peşəkarlığına söykənir. Hazırda bu məsələlər 2001-ci ildə qəbul edilmiş "Diplomatik xidmət haqqında" Qanunla tənzimlənir və yeni qanunun qəbul edilməsini zəruri edən mühüm halları sadalamaq istərdim.

Birincisi, bir sıra məsələlər mövcud qanunvericilikdə tənzimlənmədiyi üçün diplomatik xidmət orqanları "Dövlət qulluğu haqqında" Qanunun nisbətən uyğun olan normalarına istinad etmək məcburiyyətindədirlər. Bu məsələni aradan qaldırmaqdan ötrü isə çoxlu sayda dəyişikliklər etmək lazım gələrdi.

İkincisi, 2001-ci ildə qəbul olunmuş bu qanun onsuz da "Normativ hüquqi aktlar haqqında" Konstitusiya Qanununa uyğun olaraq, tam olaraq yenidən işlənməli idi.

Üçüncüsü, diplomatik xidmət orqanları hazırkı dövrdə, o cümlədən Vətən müharibəsindən sonra cənab Prezidentin tapşırıqları ilə daha geniş və spesifik fəaliyyət göstərirlər. Onlardan birini qeyd etmək istəyirəm və bir hüquqşünas olaraq Xarici İşlər Nazirliyindəki həmkarlarımızın beynəlxalq məhkəmələrdə Azərbaycanın maraqlarını peşəkarlıqla qorumalarını xüsusi vurğulamaq istərdim.

Nəhayət, dördüncüsü, ərazi bütövlüyümüz və suverenliyimiz təmin olunduqdan sonra dünya çapında Azər-

baycanın yeri və nüfuzu diplomatik xidmət sahəsində fəaliyyətinin də daha müasir tələblərlə qurulmasını tələb edir. Bu barədə hörmətli həmkarım Səməd müəllim öz təqdimatında söyləyəcək.

Hörmətli həmkarlar, qanun layihəsi 5 fəsil, 31 maddədən ibarət olmaqla diplomatik xidmət orqanlarına və bu orqanın əməkdaşlarına aid olan bütün əsas məsələləri özündə ehtiva edir. Qanunda bu xidmət orqanlarının sistemi, fəaliyyət istiqamətləri və funksiyaları dəqiq sadalanmışdır.

İkincisi, diplomatik xidmət orqanlarının əməkdaşlarının hüquqları, həvəsləndirilməsi ilə yanaşı, onlara şamil olunan məhdudiyyətlər və intizam məsuliyyəti də qeyd olunur.

Üçüncüsü, mütərəqqi hal ondan ibarətdir ki, diplomatik xidmət orqanları əməkdaşlarının və onların ailə üzvlərinin təminatı, o cümlədən kompensasiyalar ilk dəfə olaraq Birləşmiş Millətlər Təşkilatı sisteminə uyğunlaşdırılır.

Nəhayət, qanun layihəsində diplomatik xidmətə qəbul, staj və sınaqkeçmə, rotasiya, fəaliyyətin qiymətləndirilməsi, attestasiya, əməkdaşın geri çağırılması və xidmətə xitam verilməsi kimi bütün məsələlər öz əksini tapmışdır.

Onu da diqqətinizə çatdırmaq istəyirəm ki, qanunvericilik texnikası baxımından diplomatik xidmətkeçmə "Dövlət qulluğu haqqında" Qanunun bir sıra müddəaları nəzərə alınmaqla həyata keçirilir. Bu barədə qanun layihəsində də istinad var. Həmçinin nəzərə almalıyıq ki, Diplomatik xidmət haqqında yeni qanun layihəsi və onun normaları indiyə qədər qəbul etdiyimiz dövlət qulluğunun digər xüsusi növlərini tənzimləyən normalarla eynilik təşkil edir və bu, belə də olmalıdır.

Eyni zamanda, bəzi məsələlər gələcəkdə Xarici İşlər

Nazirliyinin Əsasnaməsi ilə tənzimlənəcəkdir. Bu baxımdan hesab edirəm ki, qanun layihəsi çox mükəmməl hazırlanmışdır. Əminəm ki, bugünkü müzakirələrdə Milli Məclisdə o cümlədən Xarici İşlər Nazirliyi ilə indiyə qədər qurulmuş mövcud səmərəli və konstruktiv əməkdaşlığı yenə də görəcəyik.

Fürsətdən istifadə edib qeyd etmək istəyirəm ki, son dövrlər parlament ilə Xarici İşlər Nazirliyi arasında qurulmuş bu əməkdaşlıq parlament diplomatiyasının da yüksək səviyyədə həyata keçirilməsinə öz töhfəsini verir.

Hörmətli həmkarlar, müasir dövlət siyasətimizdə xarici siyasət və diplomatik xidmət xüsusi əhəmiyyət kəsb edir. Ölkə Prezidenti cənab İlham Əliyev söyləmişdir: "Azərbaycanın xarici siyasəti milli maraqlarımıza əsaslanır. Biz heç bir xarici gücün təsiri altında olmuruq və öz yolumuzu müstəqil şəkildə müəyyənləşdiririk".

Hesab edirəm ki, diplomatik xidmət haqqında müzakirəyə çıxarılmış bu yeni qanun cənab Prezidentin qarşıya qoyduğu vəzifələrin həyata keçirilməsinin mükəmməl hüquqi bazası rolunu oynamış olacaqdır. Çox sağ olun.

**Sədrlik edən.** Əli müəllim, ətraflı məlumatınıza görə çox sağ olun. Hörmətli həmkarlar, qanun layihəsinə Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsində də baxılmışdır. Komitənin rəyini bildirmək üçün mən hörmətli Səməd Seyidova söz verirəm. Buyurun, Səməd müəllim.

**Səməd Seyidov,** *Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri.*

Hörmətli xanım sədr, hörmətli həmkarlar. Əli müəllim qanun layihəsi haqqında geniş və ətraflı məlumat verdi. Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr

komitəsi olaraq biz də bu qanun layihəsinə öz münasibətimizi bildirmək istəyirik.

Heç kim üçün sirr deyil ki, 44 günlük Vətən müharibəsi tək döyüş cəbhəsində qələbə olmadı, həmçinin Azərbaycanın Ali Baş Komandanı, cənab Prezident İlham Əliyevin xarici siyasətinin də qələbəsi oldu. Məhz bu siyasət ərazi bütövlüyümüzün beynəlxalq aləmdə tanınmasını təmin etmiş və Ermənistanın, separatçıların yalnız 30 illik işğalı zamanı deyil, ondan çox-çox əvvəl bizə qarşı törətdikləri bütün cinayətləri beynəlxalq ictimaiyyətin diqqətinə çatdırmışdır.

Azərbaycanın yaratdığı yeni reallıq ölkəmizin xarici siyasətinin prioritetlərini, bunun təsir imkanlarını regional və qlobal səviyyədə kökündən dəyişdirmişdir. Müdafiə deyil, hücum diplomatiyası öz bəhrəsini vermiş və ölkəmizi güc və nüfuz mərkəzinə çevirmişdir.

Eyni zamanda, etiraf etmək lazımdır ki, Azərbaycanın şanlı qələbəsi, işğal altında olan torpaqların azad edilməsi və tarixi ədalətin bərpa olunması Ermənistanın və bəzi Qərb dövlətlərinin revanşist qüvvələrinə siqnal vermiş, onları oyatmış və faktiki bizə qarşı yeni diplomatik cəbhənin yaradılmasına gətirib çıxarmışdır. Bu qüvvələr demokratiya, insan haqları və qanunun aliliyi dəyərlərini istifadə edərək, manipulyasiya edərək ölkəmizin imicinə xələl gətirmək, gözdən salmaq siyasəti yürüdürlər. Bütün bu səylərə baxmayaraq, cənab Prezidentin müəyyən etdiyi xarici siyasət həm regional, həm də qlobal səviyyədə ölkəmizin milli maraqlarını ən yüksək səviyyədə müdafiə etmək imkanı yaradır. Bunu təsdiq etmək üçün bəzi məqamları mən sizin diqqətinizə çatdırmaq istəyirəm.

Birincisi, bir neçə həftə bundan öncə Azərbaycanda

keçirilən COP29 – BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası haqqında bir-iki kəlmə söz demək istəyirəm. Bu konfrans ölkəmizin beynəlxalq imicini yüksəltməklə, iqlim və ekologiya sahəsində tarixi nəticələr əldə etməklə, dünyanın 196 dövlətindən olan 80 min iştirakçını və 80 dövlət başçısını Azərbaycana, Bakıya gətirməklə bizə qarşı çıxan qüvvələrin üzərində diplomatik qələbənin parlaq nümunəsidir. COP29 ölkə Prezidentinin xarici siyasətinin və Azərbaycan diplomatiyasının təntənəsi kimi qiymətləndirilməlidir.

İkincisi, Qərbi Azərbaycandan qovulmuş 400 min azərbaycanlının tarixi ədalətsizliyə məruz qaldığı artıq sübut olunmuşdur. Azərbaycan xalqının illər boyu susdurulduğu, dünya ictimaiyyətindən gizlədilmiş bu faciə bu gün Birləşmiş Millətlər Təşkilatında, müxtəlif dövlətlərdə və beynəlxalq konfranslarda geniş şəkildə müzakirə olunur, Azərbaycanın xarici siyasətinin gücünü, təsirini, imkanlarını birbaşa sübuta yetirir.

Üçüncüsü, Azərbaycanın Qoşulmama Hərəkatına sədrliyidir ki, bu da tarixə qızıl hərflərlə yazılmışdır.

Nəhayət, Şuşa bəyannaməsi və türk dünyasının birliyi və yüksəlişi də Azərbaycanın xarici siyasətinin ən parlaq nümunələrindən biridir.

Əziz dostlar, bu kimi misalları çox çəkmək olar. Lakin onu da etiraf etmək lazımdır ki, – Əli müəllim də bu haqda qeyd etdi, – Azərbaycanın xarici siyasəti, onun belə yüksək səviyyəyə qalxması ilə bugünkü qanuni və hüquqi təminatı arasında bir fərqlilik görünür.

Tamamilə doğru qeyd olunmuşdur, "Diplomatik xidmət haqqında" Qanun 2001-ci ildə qəbul olundu və Azərbay-

canın dünyada yalnız 40-a yaxın nümayəndəliyi fəaliyyət göstərməyə başladı. Bu gün onların sayı 88-dir. O vaxt biz beynəlxalq təşkilatlarda, xüsusi ilə beynəlxalq məhkəmələrdə təmsilçiliyimizdə çox böyük problemlər görürdük. Bu gün isə bu vəziyyət dəyişib. O vaxtlar Azərbaycan öz vətəndaşlarının yalnız bir neçə ölkə ilə sərbəst gediş və gəlişini təşkil edə bilərdi. Bu gün Azərbaycan vətəndaşlarının pasportları – diplomatik, xidməti və ümumvətəndaş pasportları ilə 80-dən çox ölkəyə gediş-gəlişi təmin olunur. Bu gün faktiki olaraq diplomatik təşkilatlarda biz öz nümayəndələrimizin həm sosial, həm də diplomatik statusunu tam şəkildə təmin etmək imkanını əldə edirik.

Diplomatik xidmətlə bağlı bu və buna bənzər bir çox digər məsələlər Diplomatik xidmət haqqında yeni qanun layihəsində geniş şəkildə öz əksini tapmışdır. Sevindirici haldır ki, bu gün parlamentimizdə yüksək peşəkarlığa malik diplomatlar var. Onlar da yəqin ki, öz fikirlərini bildirəcəklər. Mən isə qısa şəkildə əsas məqamları bir də sizin diqqətinizə çatdırmaq istəyirəm.

Qanun layihəsi diplomatik xidmətlə bağlı vətənə və xalqa xidmət etmək üçün bütün imkanları və şəraiti ən yüksək səviyyədə təmin edir. Sənəd həm diplomatların özlərinin, həm də onların ailə üzvlərinin fəaliyyəti və yaşam tərzi üçün yeni prinsipləri və məsələləri gündəmə gətirir. Qanun layihəsi diplomatik xidmətin sosial, fiziki, maddi və bütün digər müdafiə növlərini özündə ehtiva edir. Burada kadrların rotasiyasının təşkil olunması ilə yanaşı, diplomatik kadrların inkişafı, təhsili və irəli çəkilməsi ehtiva edilir. Sevindirici haldır ki, Azərbaycan diplomatiyasının inkişafında müstəsna rol oynayan, kadrların inkişafında xüsusi xidməti olan, bizim diplomat-

larımızın inkişafında çox əhəmiyyətli yer tutan ADA Universitetinin fəaliyyəti də bu qanun layihəsində öz əksini tapacaq.

Hörmətli həmkarlar, hörmətli dostlar və hörmətli qonaqlar, qanun layihəsi belə yeniliklərlə doludur. Sənəd tamamilə prinsipial şəkildə bəzi məsələləri, xüsusi ilə sosial məsələləri dəyişdirir. Onların içərisində diplomatların ailələrinin müdafiəsi prinsipi də həddindən vacib yer tutur. Ona görə biz Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsi olaraq tamamilə yeni mərhələyə yüksəlmiş bu qanunu yekdilliklə dəstəkləyirik. Birinci oxunuşda qanun layihəsinin qəbul olunmasına sizin tərəfdar çıxmağınızı xahiş edirik. Diqqətinizə görə sağ olun.

**Sədrlik edən.** Sağ olun, Səməd müəllim. Hörmətli həmkarlar, indi 5-ci məsələyə dair məlumat dinləyəcəyik. Bu məsələyə Əmək və sosial siyasət komitəsində baxılmışdır. Məsələyə dair məlumat vermək üçün komitənin sədri hörmətli Musa Quliyevə söz verirəm. Musa müəllim, buyurun.

**Musa Quliyev,** *Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri.*

Çox sağ olun, hörmətli xanım sədr. Hörmətli millət vəkilləri, Diplomatik xidmət haqqında yeni qanun barəsində komitə sədri həmkarlarımız olduqca ətraflı, dolğun məlumat verdilər. Mən də bildirmək istəyirəm ki, Azərbaycan Respublikasının Əmək Məcəlləsində, eləcə də 7 qanunvericilik aktında təklif edilən dəyişikliklər məhz "Diplomatik xidmət haqqında" Qanundan irəli gələn məsələləri özündə ehtiva edir və əksəriyyəti qanundakı müddəalara uyğunlaşdırma xarakteri daşıyır. Bu dəyişikliklərin əsas məqsədi və mahiyyəti diplomatik xidmət

əməkdaşlarının və onların ailə üzvlərinin sosial müdafiəsinin gücləndirilməsi, sosial təminatının yaxşılaşdırılması, eyni zamanda, əmək münasibətlərinin tənzimlənməsi xarakteri daşıyır.

Əmək Məcəlləsində təklif olunan dəyişiklik xarici ölkələrdə diplomatik xidmətdə olan əməkdaşların Azərbaycan Respublikasında dövlət büdcəsindən maliyyələşən təşkilatlarda, dövlət qulluğunda və yaxud da dövlətin yaratdığı publik hüquqi şəxsdə çalışan həyat yoldaşlarının əmək münasibətlərinin daha uyğun şəkildə tənzimlənməsindən ibarətdir. Belə ki, mövcud qanunvericiliyə görə xaricdə yaşayan həyat yoldaşının yanına getməkdən ötrü Azərbaycanda işləyən şəxs ya iş yerindən çıxmalı idi, bu halda iş yerini itirəcəkdi, ya da ən yaxşı halda öz hesabına 6 aylıq məzuniyyət götürə bilirdi. Bu da diplomatik xidmət əməkdaşlarının ailələrinin tamlığının, bütövlüyünün, möhkəmliyinin qorunması, ən əsası isə uşaqların ata və ana tərəfindən birgə tərbiyə olunması prosesinə ciddi əngəllər yaradırdı. Əmək Məcəlləsinin 69-cu və 77-ci maddələrində edilən dəyişikliklər məhz bu əngəlləri aradan qaldırır. Belə ki, xarici ölkədə çalışan diplomatın həyat yoldaşı istədiyi gün ərizəsi ilə işdən çıxırsa, həmin gün onun əmək müqaviləsinə, əmək münasibətlərinə xitam verilir və həmin işçinin yenidən öz ölkəsinə, yəni Azərbaycana qayıdıb öz işinə bərpa olunması üçün geniş imkanlar, hüquqi baza yaranır. Əgər həmin vəzifə ixtisar olunubsa və ya tutulubsa da, həmin şəxs işlədiyi təşkilatda o vəzifəyə bərabər tutulan digər bir işlə təmin olunur.

Digər qanunvericilik aktlarında olunan dəyişikliklər də “Diplomatik xidmət haqqında” Qanuna uyğunlaşdırma xarakteri daşıyır və diplomatik xidmət əməkdaşlarının

pensiya, sığorta, o cümlədən tibbi sığorta və digər sosial təminatlarının həyata keçirilməsinin daha da yaxşılaşdırılması üçün geniş hüquqi baza yaradır.

Qanun layihəsi Milli Məclisin Əmək və sosial siyasət komitəsində ətraflı müzakirə olunmuş və konseptual baxımdan müzakirə üçün Milli Məclisin plenar iclasına tövsiyə edilmişdir. Xahiş edirəm, qanun layihəsini dəstəkləyəsiniz. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Musa müəllim, çox sağ olun. Hörmətli həmkarlar, bu məsələyə daha 3 komitədə baxılmışdır. Birinci komitə İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsidir. Komitənin sədri hörmətli Azər Əmiraslanova söz verirəm. Azər müəllim, buyurun, Siz də komitənin rəyini bildirin.

**Azər Əmiraslanov,** *Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri.*

Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli deputat həmkarlar. Mən də komitənin profilinə uyğun olaraq bildirmək istərdim ki, Vergi Məcəlləsində təklif olunan dəyişiklik Diplomatik xidmət haqqında qanun layihəsinin müddəalarından irəli gəlir. Bu baxımdan diplomatik xidmət əməkdaşlarının gəlirlərinin gəlir vergisindən azad olunmasını nəzərdə tutan 102.1.1-ci maddənin yeni redaksiyada verilməsi zərurəti yaranmışdır. Dəyişiklik uyğunlaşdırma xarakteri daşıyır. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Azər müəllim. Səməd müəllim, sizin komitənizdə də bu qanun layihəsinə baxılıb. Buyurun, rəyinizi bildirin.

**Səməd Seyidov**. Çox sağ olun, Sahibə xanım. Təbii, bu dəyişikliklər indi təqdim etdiyimiz yeni Diplomatik

xidmət haqqında qanun layihəsi ilə birbaşa bağlıdır. Ona görə komitəmiz tam şəkildə lehinədir və lehinə səs verməyinizi də sizdən xahiş edirəm.

**Sədrlik edən.** Çox sağ olun. Əli müəllim, bu məsələyə Hüquq siyasəti və dövlət quruculuğu komitəsində də baxılıb. Xahiş edirəm, rəyinizi bildirin.

**Əli Hüseynli**. Çox sağ olun. Hörmətli sədr, hörmətli həmkarlar, mən təqdimatda da söyləmişdim ki, bu qanunda "Dövlət qulluğu haqqında" Qanuna bir istinad var. Bir sıra məsələlər var ki, "Dövlət qulluğu haqqında" Qanunla tənzimlənir və bundan sonra da tənzimlənəcək. Bizim komitənin profilinə aid olan, yəni 5-ci məsələdəki həmin o layihə də məhz "Dövlət qulluğu haqqında" Qanunda edilən dəyişiklikdir. Hörmətli sədr, onu da söyləmək istəyirəm ki, həm bu layihə, həm əsas layihə komitələrin birgə iclasında müzakirə olunmuşdur. Mən də fürsətdən istifadə edib bütün komitə üzvlərinə, o cümlədən Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin üzvlərinə təşəkkür etmək istəyirəm ki, müzakirələr çox yüksək peşəkarlıqla keçdi. Bu da, təbii ki, komitənin profili ilə bağlıdır, bu məsələ ilə yaxından tanışdırlar. Həmkarlarıma təşəkkürümü bildirmək istəyirəm.

**Sədrlik edən.** Çox sağ olun, Əli müəllim. Bəli, çox vacib və lazımlı qanundur. Ona görə də komitələrin hamısı tərəfindən, Musa müəllimin komitəsi tərəfindən də münasibət, təbii ki, normaldır və vacibdir.

Hörmətli həmkarlar, biz müzakirələrə başlayırıq, yazılanlar var. Təklif var ki, 5 dəqiqəyə keçək. Heç kimin etirazı yoxdur?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Səsə qoymuram onda. Vüqar Bayramov.

Buyurun.

**Vüqar Bayramov**. Çox təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli millət vəkilləri və hörmətli qonaqlar. Mən də bu qanun layihəsini dəstəkləyirəm, çünki bu, gələcəkdə diplomatik xidmətdə hüquqi bazanın təkmilləşdirilməsi ilə yanaşı, bütövlükdə, bu istiqamətdə iqtisadi, sosial, əmək və eləcə də pensiya təminatının daha da gücləndirilməsinə xidmət edəcək. Nəzərə alsaq ki, bütövlükdə, xarici siyasət xüsusən də Azərbaycanın əldə etdiyi Zəfərdən və regionda formalaşan yeni düzəndən sonra daha da aktuallaşıb. Cənab Prezidentin müəyyənləşdirdiyi istiqamətlərə uyğun olaraq xarici siyasətimizdə mütəmadi uğurlarımız qeyd edilir.

Hörmətli həmkarlarımın da qeyd etdiyi kimi, ötən əsrin 90-cı illərində AXCP–Müsavat hakimiyyətinin yarıtmaz fəaliyyəti həm də xarici siyasətimizdə ciddi nöqsanlara gətirib çıxarmışdı. Məhz 1993-cü ildə Ulu Öndərin yenidən hakimiyyətə qayıtması bütün sahələrdə olduğu kimi, yeni müasir çağırışlara uyğun xarici siyasət istiqamətlərinin müəyyənləşdirilməsinə də xidmət etdi. Təbii ki, bu siyasət bu gün cənab Prezidentin rəhbərliyi ilə uğurla davam etdirilir və daim inkişafdadır. Heç kəsə sirr deyil ki, bir sıra dairələrdə, xüsusən Qərb dairələrində xalqımızın əldə etdiyi Zəfərdən, yəni ərazi bütövlüyümüzün və suverenliyimizin tam bərpasından sonra Azərbaycana qarşı haqsız qətnamələrin qəbul edilməsi, qərəzli bəyanatların verilməsi müşahidə edilir. Bu baxımdan, təbii ki, xarici siyasətin istiqamətlərinin daha da təkmilləşdirilməsi, güclənməsi və cənab Prezidentin müəyyənləşdirdiyi istiqamətlər üzrə diplomatik fəaliyyətin genişləndirilməsi aktuallaşır. Praktik olaraq biz bir tərəfdən, bir sıra

dairələrdə Azərbaycana qarşı qərəzli təzyiqləri müşahidə edirik, digər tərəfdən, Azərbaycan diplomatiyası həmin təzyiqlərə və təhdidlərə cavab verir.

Bu gün Azərbaycan əldə etdiyi Zəfərlə regionda yeni düzənin formalaşmasına nail olub. Təbii ki, Qarabağ və Şərqi Zəngəzurun 30 il işğal altında qalması, həmin ərazilərimizin tamamilə dağıdılması və ölkə iqtisadiyyatına ciddi ziyan vurulması həm də xarici siyasətdə yeni konturların, yeni istiqamətlərin müəyyələşdirilməsini və beynəlxalq hüquqa uyğun olaraq, bu hüquqların beynəlxalq məhkəmədə daha yaxından dəstəklənməsi təqdimatını gündəmə gətirib. Danılmaz faktdır ki, Qarabağ və Şərqi Zəngəzurun işğal müddətində tamamilə dağıdılması Azərbaycan iqtisadiyyatına milyard dollarlarla ziyan vurub. Bu gün, təbii ki, cənab Prezidentin rəhbərliyi ilə biz həmin ərazilərimizin bərpasını və yenidən qurulmasını müşahidə edirik. Nəzərə alsaq ki, artıq 20 minə yaxın vətəndaşımız işğaldan azad olunmuş ərazilərimizə qayıdıb və 2026-cı ilin sonuna qədər 140 min vətəndaşımız həmin ərazilərdə məskunlaşacaq, bu, bir tərəfdən, Azərbaycanın iqtisadi gücünü göstərir, digər tərəfdən isə xarici siyasət üçün yeni çağırışlar və yeni prioritetlər müəyyənləşdirir.

Bu baxımdan yeni qanun layihəsinin qəbul edilməsi, qeyd etdiyimiz kimi, formalaşmış iqtisadiyyat və güclü maliyyə resursları kontekstindən diplomatik xidmətin sosial baxımdan da daha yaxından dəstəklənməsinə imkan verəcək. Məlumdur ki, son illər diplomatik fəaliyyətlə məşğul olan vətəndaşlarımızın sosial təminatının gücləndirilməsi ilə bağlı xeyli addımlar atılıb. Əməkhaqqı artımları, həmin diplomatlarımızın ailələrinin sosial əmək hüquqlarının qorunması, eləcə də vergi güzəştlərinin

tətbiq edilməsi bir daha bu istiqamətdə dövlət siyasətinin, dövlət dəstəyinin inkişaf etməsi və güclənməsindən xəbər verir. Bu kontekstdən Azərbaycan xarici siyasətdə yeni uğurlara imza atır və cənab Prezidentin müəyyənləşdirdiyi siyasətə uyğun olaraq da diplomatik fəaliyyətlə məşğul olan vətəndaşlarımızın sosial təminatının güclənməsini müşahidə edirik. Sözsüz ki, parlament diplomatiyasının son illər inkişaf etməsi də bir daha ondan xəbər verir ki, fərqli "stakeholder"lər tərəfindən xarici siyasətdə həyata keçirilən istiqamət cənab Prezidentin müəyyənləşdirdiyi siyasətə uyğunlaşır və uzlaşır. Bu da, təbii ki, bizim üçün yeni qələbələr və yeni imkanlar deməkdir. Təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun. Hicran xanım, Sizin sualınız var? Yazılmısınız, buyurun.

**Hicran Hüseynova.** Hörmətli Sahibə xanım, hörmətli həmkarlar, bu, çox vacib bir qanundur və vacib dəyişikliklərdir. Mən düşünürəm ki, diplomatik xidmət orqanı əməkdaşları vətənimizi qoruyan hərbçilər kimi qəbul edilməlidir. Onların ailə üzvlərinin hüquqlarının qorunması mühüm məsələdir. Ona görə bütün bu əlavə və dəyişikliklər çox böyük əhəmiyyətə malikdir və əlbəttə ki, mən sənədin lehinə səs verəcəyəm.

Sualım və ya təklifim nədən ibarətdir? Gələcəkdə büdcədə diplomatik xidmətlə bağlı təhlükəsizlik məsələləri də qanunda öz əksini tapsa, çox yaxşı olardı. Nəzərə alsaq ki, dünyada gedən o proseslər və Azərbaycana qarşı təzyiqlər də bunu tələb edir. Çox sağ olun.

**Sədrlik edən.** Sağ olun. Həm sualdır, həm də Sizin tərəfinizdən təklifdir. Nigar Arpadarai. Buyurun.

**Nigar Arpadarai**. Çox sağ olun. Hörmətli xanım sədr, hörmətli həmkarlar, bu qanun layihəsi çox önəmli bir

qanun layihəsidir. Aydındır ki, əvvəlki qanunun qəbulundan kifayət qədər vaxt keçib və burada bir çox məsələlərin tənzimlənməsinə ehtiyac var. Bu qanun layihəsi ilə tanış olduğumuz zaman aydın görünür ki, peşəkarlıqla hazırlanıbdır, strukturu və məqsədləri bəllidir. Ona görə mən də bu qanun layihəsini dəstəkləyirəm.

Eyni zamanda, mən bir neçə məqama toxunmaq istərdim. Son aylar ərzində, COP29-a hazırlaşdığımız zaman bizim diplomatlarla yaxından işləmək imkanım oldu. COP29-un danışıqçılar qrupu, əsasən, diplomatlardan ibarət bir qrup idi. Onlar çox böyük peşəkarlıqla çalışdılar və məhz onların fəaliyyəti sayəsində biz 200-ə yaxın ölkəni bir araya toplayaraq onları konsensusa gətirə bildik və o yekun qərarlar, maliyyə hədəfi qəbul olundu. Bizim indi artıq xüsusi ilə üçtərəfli və çoxtərəfli mürəkkəb danışıqları aparmaq iqtidarında olan diplomatlarımız var. Cənab Prezidentin apardığı siyasəti rəhbər tutaraq, ümumiyyətlə, bizim diplomatik xidmətin gələcəyindən heç bir şübhəmiz yoxdur. Ona tam olaraq əminik.

Qanunla bağlı bir neçə təklifim var:

Biz qadınların diplomatik xidmətdə karyeralarının artmasını dəstəkləməliyik. Çünki yenə də qadınlarımızın bir qədər baryerləri var, onların ezamiyyətləri çox olur. Obyektiv səbəblər var ki, bizim qadın səfirlərin sayı hələ də azdır və ona görə də bu məsələni biz qanunda hansı isə bir yanaşma olaraq qoya bilərdik. Ümumilikdə mən özüm şəxsən, məsələn, kvota sisteminin və pozitiv diskriminasiyanın tərəfdarı deyiləm. Çünki bu, süni yaradılmış mexanizmdir. Amma konkret bu halda sırf olaraq diplomatik xidmətdə bizim qadınların sayını artırmaq üçün müvəqqəti olaraq müəyyən şərtlərlə, məsələn, kvota sistemini də

müəyyən etmək olar. Çünki bu, həm cəmiyyət üçün, həm də beynəlxalq fəaliyyətimiz üçün çox müsbət təsir göstərəcək.

Digər bir məsələ, bizim yaşlı diplomatlarımız var. Məsələn, elə diplomatlar var ki, illərdir çalışıblar, neçə dəfə səfir olublar, amma hazırda nə səfirliklərdə, nə də Xarici İşlər Nazirliyində onlara uyğun bir vakansiya yoxdur. Onlar isə hələ də işləmək, çalışmaq istəyirlər, çünki böyük təcrübələri var. Ona görə o diplomatlarımızı da, məsələn, hansı isə beyin mərkəzləri, assosiasiyalar, məsləhət şuraları ola bilər ki, işə cəlb edə bilərlər və ölkəyə fayda gətirərlər. Bunu da təklif etmək istərdim.

Digər bir məsələ müasir texnologiyalarla bağlıdır. Yəni artıq müasir texnologiyalar diplomatik xidmətin ayrılmaz bir parçasıdır. Əvvəllər əgər məlumat ötürmək üçün, məsələn, fakslardan, məktublardan istifadə olunurdusa, indi buna əlavə olaraq "WhatsApp" var, e-mail var. Biz onu qəbul etməliyik ki, onlar məlumatı daha tez ötürürlər. Hesab edirəm ki, bunu da qanunda bir prinsipial yanaşma kimi əlavə edə bilərik. Çünki bu, həm riskdir, həm də imkandır. Ona görə imkandır ki, bu, məlumatın daha tez ötürülməsi üçün imkan yaradır və diplomatik nümayəndələr arasında koordinasiyanı tezləşdirə bilər. Amma kibertəhlükəsizlik məsələləri də var ki, bu haqda bizim komitədə müzakirə olunan zaman hörmətli həmkarlar da qeyd etmişdilər.

Son olaraq çox texniki bir məsələ barədə demək istərdim, bu, əslində, ikinci oxunuşa aiddir. Amma qısa olduğu üçün, ikinci oxunuşda vaxt almamaq üçün onu qeyd edirəm. Burada 7.1.12-ci maddədə göstərilir ki, diplomatlar "əcnəbi və ya vətəndaşlığı olmayan şəxslə keçirilən

görüşlər barədə” rəhbərliyə məlumat verməlidir. Bunun məntiqi aydındır. Amma bunu vəzifələr bölməsində göstəriblər. Məsələn, elə bir məqam ola bilər ki, bu görüş ikitərəfli görüş deyil, ziyafətdir, qəbuldur və ya şam yeməyidir. Yəni real olaraq hər bir görüş barədə dərhal məlumat vermək çətinlik törədə bilər. Bu, hansı formada icra olunacaq, o bir az çətinlik yarada və rəhbərliklə diplomat arasında münaqişələrə gətirə bilər. Ona görə buna da yenidən baxılmasını təklif edərdim. Ümumilikdə isə çox peşəkarlıqla hazırlanmış qanundur və hamını dəstəkləməyə çağırıram. Çox sağ olun.

**Sədrlik edən.** Sağ olun, Nigar xanım. Mən düşünürəm ki, Siz kvota məsələsini təklif edirsiniz. Yəni burada kvota qaldırılsın. Kvota o ölkələrdə ola bilər ki, gender bərabərliyi ilə bağlı problem olar. Bizdə, əslində, gender bərabərliyi Konstitusiyamızda var, yazılıb və ona görə də mən inanmıram ki, kvota burada öz yerini tapa. Təbii ki, qanun layihəsi ilə məşğul olanlar bu haqda, əlbəttə, bir söz deyəcəklər. Qüdrət Həsənquliyev. Buyurun.

**Qüdrət Həsənquliyev**. Hörmətli sədr, hörmətli qonaqlar, həmkarlar, media nümayəndələri! Mən ilk öncə qanun layihəsini hazırlamış işçi qrupun üzvlərinə, o cümlədən qanun layihəsini təqdim edən həmkarlarıma öz təşəkkürümü bildirirəm. Amma o məsələ ilə bağlı çıxış etməmişdən öncə hörmətli Əli müəllimin bir fikrinə münasibət bildirmək istəyirəm. Əli müəllim qeyd etdi ki, keçmişdə bizə münasibətin pis olması uğursuz diplomatiyamızla bağlı olub. Xüsusi ilə də İranın adını çəkdi, bizə sanksiyalar tətbiq olunmasından danışdı. Sanksiyanı Amerika Birləşmiş Ştatları tətbiq etmişdi. Bu ölkə bu gün də bizi sanksiya tətbiq edəcəyi ilə təhdid edir, hədələyir.

Hazırda münasibətlərimizdə ciddi gərginlik var. İranla da münasibətlərimizdə gərginlik davam edir və Zəngəzur üzərindən Naxçıvana maneəsiz gediş-gəlişin təmin olunmasına əsas mane olan ölkə də İrandır. Bizim səfirliyimizə də məhz bu ölkədə basqın edildi və bizim diplomatlar qətlə yetirildi. Ona görə də yeni müstəqillik əldə etmiş ölkəmizin həm müstəqilliyini, həm də müstəqil siyasət yeritməsini o zaman da, indi də qəbul etmirlər. Bu gün də bizim həm Avropa İttifaqı ilə, həm də Avropa Şurası ilə münasibətlərimizdə ciddi gərginlik yaşanmaqdadır. Amma mən bunu qətiyyən uğursuz diplomatiya ilə əlaqələndirmirəm. Əksinə, bizim xarici siyasətin həyata keçirilməsindəki iştiraklarına görə mən hörmətli sədrimiz başda olmaqla həm bütün Milli Məclisin üzvlərinə, həm xarici işlər orqanlarında çalışan diplomatlarımıza, həm də Prezident Administrasiyasının beynəlxalq əlaqələr şöbəsinin əməkdaşlarına və rəhbərliyinə öz minnətdarlığımı bildirirəm. Yəni bizə olan təhdidlərin kökündə tamamilə başqa maraqlar, belə deyək, ermənipərəst dairələrin fəaliyyəti dayanır.

Hörmətli sədr, müzakirə olunan məsələ ilə bağlı onu qeyd etmək istəyirəm ki, biz, doğrudan da, bütün əldə edilmiş uğurlara baxmayaraq, fəaliyyətimizi genişləndirməliyik. Mən xatırlayıram, bir dəfə NATO Parlament Assambleyasının bir iclası Avropanın inkişaf etmiş ölkələrinin birində keçirildi. Biz orada səfirlə görüşəndə mən hiss etdim ki, bizim səfirlik yerli mətbuatı oxumur və sual verdim. O mənim narahatlığımı başa düşdü və dedi ki, ingilis dilində həftəlik bir qəzet çıxır, biz yalnız onu oxuyuruq. Bunların dili çox çətindir. Amma dedi, fikrimiz var ki, yerli dili bilən bir nəfəri işə götürək. O bizə

mətbuatın xülasəsini hazırlasın. Əlbəttə, burada yeni qanunun 6.1.12-ci maddəsində qeyd olunur ki, bizim diplomatlar orada qeyri-hökumət təşkilatları ilə, ictimai birliklərlə, fondlarla, işgüzar dairələrlə ciddi əlaqələr qurmalıdır. Amma orada media və siyasi partiyalarla, yerli nümayəndələr ilə görüşlər barədə heç nə qeyd olunmur. Mən hesab edirəm, bu da əlavə olunmalıdır ki, bizim səfirliklər üçün mütəmadi olaraq o ölkələrin mətbuatının xülasəsi hazırlansın, həm də Azərbaycan Xarici İşlər Nazirliyinə bu barədə məlumat verilməlidir. Burada hörmətli Nigar xanım söylədi ki, görüşlər barədə məlumatlar verilsin. Mən, həqiqətən də, bunu zəruri hesab edirəm və dəstəkləyirəm. Ona görə ki, diplomatlar bütün fəaliyyətləri barədə öz rəhbərlərini məlumatlandırmalıdırlar.

Hörmətli sədr, digər bir mühüm məsələ barədə mən burada qeyd etmək istəyirəm. Söhbət 24.7-ci maddədən gedir, səfirlərin səlahiyyət müddəti ilə bağlı məsələdir. Biz görürük ki, qanunda yazılıb, 5 il müddətinə təyin olunur. Amma bizim bəzi səfirlərimiz 10 il, 15 il bir ölkədə olurlar. Məsələn, mən həmişə düşünürəm, tutaq ki, niyə bizim hansı isə bir səfirimiz uzun müddət Səudiyyə Ərəbistanında səfir olsun, başqası isə, məsələn, İsveçrədə olsun. Ona görə də bunlar rotasiya olunmalıdırlar.

"Normativ hüquqi aktlar haqqında" Konstitusiya Qanununda qeyd olunur ki, diskresion səlahiyyətlər orqanın öz mülahizəsinə görə tətbiq edə biləcəyi səlahiyyətlərdir. Burada orqanın öz seçimi ilə dispozitiv davranış imkanları məhdud olmalıdır. Bu imkanın geniş olması bizim Konstitusiya qanununa görə tipik sui-istifadə amili hesab olunur. Həm də "Normativ hüquqi aktlar haqqında" Konstitusiya Qanununun 64-cü maddəsində qeyd olunur

ki, qanunlarda “orqan edə bilər”, “zərurət olduqda” kimi ifadələrdən istifadə olunmasın. O baxımdan mən hesab edirəm ki, biz qanunda istisnalara yol verməməliyik və 5 ildən bir rotasiya olunmalıldır.

**Sədrlik edən.** Sağ olun. Tural Gəncəliyev. Buyurun.

**Tural Gəncəliyev**. Hörmətli xanım sədr, hörmətli həmkarlar. Bu gün müzakirəmizə təqdim edilmiş Diplomatik xidmət haqqında Azərbaycan Respublikasının qanun layihəsini mən yüksək peşəkarlıqla hazırlanmış və təqdirəlayiq hesab edirəm. Həqiqətən də, bu, bizim dövlətimizin qanunvericilik layihəsini hazırlayanların diplomatiyaya və diplomatik xidmətin keyfiyyətinin yüksəldilməsinə, diplomatik xidmət orqanlarında çalışan şəxslərin təminatının və diplomatik bacarıqlarının yüksəldilməsinə xidmət edir. Ona görə də həm qanunvericilik texnikası, həm də konseptual baxımdan yüksək səviyyədə hazırlanmışdır.

Mən də fürsətdən istifadə edib məhz birinci oxunuşun tələblərinə uyğun olaraq, fikirlərimi bölüşmək istəyirəm. Ümumiyyətlə, bu qanun layihəsi bizə nəyi təlqin edir? Biz diplomatiyaya, diplomatik xidmətə daha çox önəm verməliyik. Çünki biz elə bir reallıq yaratmışıq ki, hazırda bütün dünya, Qərb dairələri Azərbaycanın üzərinə hücuma keçirlər. Bizdə bu hücumun qarşısını ala bilməkdən ötrü böyük diplomatik bacarığa, qabiliyyətə malik olan diplomatik xidmət əməkdaşlarının, diplomatların olması önəmlidir. Bu gün dünyada diplomatiya yumşaq güc vasitəsi hesab edilir və əgər sizin diplomatik xidmət orqanlarında çalışan yüksək səviyyəli diplomatlarınız varsa, bu, həmişə başucalığıdır, yüksək nəticələr gətirir. Örnək olaraq bizim cənab Prezident. 44 günlük müharibə dövründə həm diplo-

matik, həm də liderlik qalibiyyəti ilə ölkəni öz arxasınca apardı və önəmli qələbələr əldə etdi. Bu, Azərbaycanın diplomatiya qələbəsinin çox gözəl nümunəsi idi.

Ümumiyyətlə, 2003-cü ildən sonra Azərbaycanın diplomatiya sahəsində inkişafı yüksələn xətlə getdi və son 20 il ərzində bu öz bəhrəsini böyük qələbənin nəticələri ilə gətirdi. Məsələn, neçə illər öncə bizim tariximizdə ilk dəfə olaraq BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçilməyimiz, daha sonra Qoşulmama Hərəkatına sədrlik etməyimiz böyük diplomatik məharət tələb edən uğurlar idi. BMT Baş Assambleyasından sonra Qoşulmama Hərəkatı bizim dünyanın ikinci ən böyük platformasına sədrlik etməyimizə səbəb oldu. Daha sonra COP29 konfransı. Bax, bütün bunlar ölkəmizin inkişafı üçün bazis hazırladı və nəhayət, 44 günlük Vətən müharibəsi, əldə etdiyimiz böyük Zəfər! Yenə də cənab Prezidentin həm sərkərdə, həm də diplomatik bacarıqları burada öz rolunu oynadı. Bir güllə atılmadan ən çətin relyefi olan və amansızlıqla minalanmış Ağdam şəhərini, Laçın və Kəlbəcər rayonlarını işğaldan azad etdik. Məhz diplomatik uğur sayəsində. Bax, bütün bunlar yenə də bizim ölkəmizin hazırda diplomatiyaya və diplomatik inkişafa önəm verdiyinin göstəricisidir. Həm də nəzərə alsaq ki, diplomatiya beynəlxalq hüququn tərkib hissəsidir, ona görə mən bu layihəni çox təqdirəlayiq hesab edirəm. Özüm də 15 il diplomatik xidmət orqanlarında şərəflə çalışmış bir şəxs kimi bu qanun layihəsinin lehinə səs verəcəyəm.

Hörmətli xanım sədr, sonda bir fikrimi də bildirim. Həm diplomatik xidmət orqanlarında fəaliyyət, həm də əldə etdiyimiz nailiyyətlər Sizin rəhbərliyinizlə parlament

diplomatiyasında önəmli uğurlar əldə etməyimizə səbəb olmuşdur. Elə bu qanun layihəsinin qəbulu da bilavasitə olmasa da, dolayısı ilə parlament diplomatiyasının da inkişafında daha böyük uğurlar əldə edəcəyimizə aparacaqdır. Mən qanunu dəstəkləyirəm. Sağ olun.

**Sədrlik edən.** Çox sağ olun. Bəli, biz həmişə Xarici İşlər Nazirliyi ilə bu istiqamətdə birlikdə işləmişik və işləyəcəyik. Hörmətli Musa müəllim söz istədi. Buyurun. Musa Qasımlı.

**Musa Qasımlı**. Hörmətli xanım sədr, hörmətli həmkarlar. Möhtərəm cənab Prezidentimiz İlham Əliyev tərəfindən təqdim edilmiş Diplomatik xidmət haqqında qanun layihəsi diplomatik xidmət orqanlarının fəaliyyətini və əməkdaşlarının xidmətinə dair bütün məsələləri daha səmərəli tənzimləməyi nəzərdə tutduğu, peşəkar hazırlandığı üçün lehinə səs verəcəyəm.

Dövlətimiz üçün vacib olan qanun layihəsinin hazırlanmasını şərtləndirən amillərdən yalnız bir neçəsi barədə fikirlərimi yığcam olaraq söyləməyi vacib hesab edirəm.

Əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulmuş, 2003-cü ildən sonra yeni şəraitə uyğun olaraq cənab Prezident İlham Əliyevin müəyyənləşdirdiyi xarici siyasət xəttinin uğurla həyata keçirilməsi nəticəsində Azərbaycanın dünyada beynəlxalq nüfuzu artıb, bir sıra ölkələrdə səfirliklərimiz açılıb, diplomatik fəaliyyətin coğrafiyası genişlənib. Ölkəmiz dünyaya təsir edəcək güc halına gəlib və bir sıra örnəklər yaradıb. Ötən illərdə dövlətimizin başlıca vəzifəsi olan ölkənin və millətin müdafiəsini təşkil etmək, təhlükəsizliyini etibarlı şəkildə qorumaq və dövlət quruculuğu üçün əlverişli beynəlxalq şəraiti təmin edən xarici siyasət yürütmək vəzifələri uğurla yerinə yetirilib.

Bilirsiniz ki, diplomatiya mümkünlük sənətidir. Tarixən qarşıda dayanan 5 pis variantdan ən az pis variantı götürməyi bacaran diplomatiyanın fəaliyyəti, bir qayda olaraq, qənaətbəxş qiymətləndirilib. Lakin xarici siyasət fəaliyyətini heyrətamiz ustalıqla həyata keçirən Prezident İlham Əliyev uzun əsrlər boyu formalaşmış bu düsturu vurub dağıtdı, qarşımıza qoyulan bütün pis variantları ayaqlar altına atdı, millətimiz və dövlətimiz üçün ən yaxşı olanı, həlli mümkün olmayan hesab ediləni mümkün etdi və ölkəmizi qələbələrə apardı. Qazanılan Zəfər təkcə hərbi deyil, eyni zamanda, İlham Əliyev diplomatiyasının qələbəsi oldu. Çünki bu, dünya tarixində nadir hadisələrdən biridir və bu gün dövlətimizə qarşı aparılan çirkin kampaniyanın səbəblərindən biri də budur.

1991-ci ildən sonra ilk dəfə 2023-cü ildə dövlət suverenliyimizin tam bərqərar edilməsindən sonra yaranmış tamamilə yeni şərait bu qanunun hazırlanmasını şərtləndirib. Andiçmə mərasimindəki nitqində cənab Prezidentimizin dövlətimizin xarici siyasətinin üstün istiqamətləri barədə söylədiklərinin reallaşdırılması da diplomatik xidmət orqanlarının qarşısında yeni vəzifələr qoyur. Həmin vəzifələri yerinə yetirməkdən ötrü onların fəaliyyətinin daha da təkmilləşdirilməsi zəruridir. Qanun layihəsi haqqında çox danışmaq olar. Yalnız bir neçə məsələni vurğulamağı vacib hesab edirəm.

Layihə diplomatik xidmət orqanlarında vahid və ciddi mərkəzçiliyi, çevik və səmərəli əlaqələndirmənin daha yaxşı təşkilini təmin edəcəkdir. Müstəqilliyin ilk illərində ölkəmizdə bəzi qurumların Xarici İşlər Nazirliyini məlumatlandırmadan, razılıq almadan hər hansı bir ölkə və ya xarici təşkilatla birbaşa əlaqə qurmalarının, rəsmi şəxs-

lərin bir məsələyə dair fərqli fikirlər səsləndirmələrinin xarici siyasət xəttinə vurduğu ziyan məlumdur.

Qanun layihəsi təkcə bu günümüz üçün deyil, gələcək baxımından da əhəmiyyətlidir. Milli dövlətçilik tariximiz baxımından layihədə diplomatik fəaliyyətə dair yazışmaların qeydiyyatının aparılmasının, saxlanılmasının, arxivləşdirilməsinin və mühafizəsinin təşkil edilməsi prosesinin tənzimlənməsinin yazılmasını əhəmiyyətli hesab edirəm. Qanun layihəsində diplomatik xidmət orqanlarının arxivinə dair ayrıca maddənin verilməsi yaxşı olmazdımı?

Burada səsləndirilən bir məsələ barədə də mülahizəmi bildirmək istəyirəm. Xaricdə xidmət edən diplomatik şəxs, diplomat dövlətin adamıdır və harada hər hansı bir şəxslə görüşürsə, o haqda mütləq məlumat verməlidir. Mən özüm bəlli ölkənin xarici siyasət arxivində işlədiyim üçün söyləyirəm ki, böyük dövlətlərin əksəriyyətində bir diplomat bir ziyafətdə kiminləsə görüşübsə və yaxud da bir qəhvə içərkən, hətta bir gəzintidə hansısa söhbət olubsa belə, o söhbət barədə mütləq səfirə məlumat verməlidir və həmin sənədlər də arxivdə qalır. Çünki elə məsələlər var ki, onlar rəsmi görüşlərdə müzakirə edilmir. Bununla bağlı mən sizə çoxlu misallar çəkə bilərəm.

Vacib məsələlərdən biri də diplomatik xidmətə xitam verildikdən sonra şəxsin keçmiş xidməti fəaliyyəti barədə məlumat verməsi məsələlərinin tənzimlənməsidir. Buna dair əvvəlki illərdə yol verilmiş bəzi üsulsuz halların qarşısının bundan sonra qanunla alınması çox vacibdir. Digər bir əhəmiyyətli məsələ isə diplomatik xidmət əməkdaşlarının elmi və yaradıcılıq fəaliyyəti, həmçinin xidmət keçdiyi diplomatik xidmət orqanının icazəsi ilə

pedaqoji fəaliyyətlə məşğul olmasıdır. Diplomatların universitetlərin müvafiq fakültələrində dərs vermələrinə icazənin nəzərdə tutulmasının diplomatik kadrların hazırlanmasında təkcə elmi-nəzəri deyil, praktik baxımdan da faydalı olacağı qənaətindəyəm. Yeri gəlmişkən, keçmiş səfirlərimizin gündəliklərinin, xatirələrinin bəlli qaydalar çərçivəsində yazılıb kitab kimi dərc edilməsi də diplomatiya tariximizin öyrənilməsi, tədqiqi və təbliği baxımından fayda verərdi. Bu ənənənin formalaşdırılmasına ehtiyac vardır.

Layihədə diplomatik xidmət orqanları əməkdaşlarının sosial məsələlərinin tənzimlənməsinin nəzərdə tutulması da onların peşə fəaliyyətini daha yaxşı həyata keçirmələrinə kömək edə bilər. Bu, müvafiq tələblərə cavab verən gənclərin diplomatik xidmətə qəbulunun daha yaxşı tənzimlənməsi, diplomatik xidmətdə varisliyi təmin etməyə yönəldiyi üçün əhəmiyyətlidir. Diplomatik xidmət orqanları əməkdaşlarının fəaliyyətinin qiymətləndirilməsinin və attestasiyadan keçirilməsinin nəzərdə tutulması bu sahədə işlərin keyfiyyətinin daha da yaxşılaşdırılması məqsədini güddüyündən yalnız müsbət qiymətləndirilməlidir. Qanun layihəsinin lehinə səs verəcəyəm. Diqqətinizə görə sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Musa müəllim. Sahib Alıyev. Buyurun.

**Sahib Alıyev.** Hörmətli xanım sədr və dəyərli həmkarlar, “Diplomatik xidmət haqqında” Azərbaycan Respublikasının ilk Qanununun qəbulundan 23 il keçdiyindən, bu müddət ərzində geosiyasi xarakterli böyük dəyişikliklər baş verdiyindən, onun yenilənməsinə ehtiyac vardır. Yeni qanun həm bütün bu illər ərzində yığılan təcrübə, həm

bizimlə eyni vaxtda müstəqillik əldə edən bəzi dövlətlərin uyğun qanunlarına edilən bir sıra dəyişikliklər, həm də yeni dövrün tələbləri nəzərə alınmaqla hazırlanıb. Yeni dövrün tələbləri deyərkən mən onu nəzərdə tuturam ki, bu gün Azərbaycana qarşı diplomatik təzyiqlər əvvəlki illərdəki kimi malalanmaqla deyil, açıq şəkildə edilir, bunun da səbəbi Zəfərimizlə, cənab Prezidentin buradakı çıxışında da vurğulandığı kimi, qlobal layları tərpədərək yeni geosiyasi reallıq yaratmağımızla bağlıdır.

Belə bir ifadə var ki, savaş diplomatiyanın başqa yolla davamıdır. Bunun əksi də düzdür, diplomatiya, əslində, savaşın başqa yolla davamıdır. Biz bu gün Azərbaycanı gözü götürməyənlərlə, ümumiyyətlə, Frensis Fukuyamanın "Tarixin sonu" əsərindəki bir tezisdə də vurğulandığı kimi, əsl liderlərə və dövlətlərə ehtiyac duyulmayan, ikincilərin transmilli korporasiyalarla əvəzləndiyi dünya qurmağa çalışan qloballaşdırma ssenaristləri, Qərb fundamentalizmi ilə üz-üzəyik. Yəni burada bizə rəqib kəsilən, hətta düşmən kimi davranan Ermənistan deyil, Ermənistandan alət kimi faydalanan güclərdir. Ona görə də Azərbaycan diplomatı hazırlıq baxımından Fransa və dövlətimizə düşmən kəsilən digər dövlətlərin nümayəndələrindən qat-qat yüksəkdə durmağı bacarmalıdır.

Bu qanunvericilik aktında da diplomat olmaq istəyən soydaşlarımızın qarşısına qoyulan yüksək peşə standartları tələbinin əksini tapmasını çox düzgün sayıram. Burada da vurğulanır ki, bəli, diplomat mütləq xarici dil, ilk növbədə də getdiyi ölkənin dilini bilməlidir. Amma unutmamalıdır ki, dil diplomata, bir məsəldə deyildiyi kimi, əsl niyyətini gizlətmək üçün deyil, ilk növbədə onu reallaşdırmaq üçün lazımdır. Bu baxımdan Azərbaycan

Prezidenti cənab İlham Əliyev onlar üçün ən böyük örnəkdir.

Bəli, diplomat nə qədər çox dil bilsə, bir o qədər yaxşıdır. Ancaq onun bir amalı, bir məqsədi, bir hədəfi olmalıdır ki, o da Azərbaycana xidmətdir. Harada çalışmasından asılı olmayaraq o, qiblə gözündə məhz Azərbaycanı görməli, yenə deyirəm, bu baxımdan liderimizdən örnək götürməlidir.

Ümumiyyətlə, cənab Prezidentin 44 günlük savaş zamanı o kontrsuallarla silahlandırılaraq gələn jurnalistləri yerində oturtması, eyni zamanda, beynəlxalq ekspertlər qarşısında çıxışları diplomatlarımız üçün əsl master-klassdır və belə master-klasslar dünyanın ən aparıcı diplomatik kadrlar hazırlayan mərkəzlərində belə olmur. Mən buna varlığım kimi əminəm. Onu da deməliyəm ki, məhz onun yüksək diplomatik bacarığı sayəsində biz 4 rayonumuzu ya qismən, ya da tamamilə işğaldan azad etdik. Eyni zamanda, zəfərimizə görə bizi təcrid etməyə, boykotda saxlamağa çalışanların özünü boykotda qoyduq, bu haqda az öncə danışıldı. COP29-un belə yüksək səviyyədə keçirilməsi bunun ən gözəl nümunəsidir.

Dövlətin beynəlxalq subyekt olub-olmaması da, əslində, yeridilən diplomatiyada özünü göstərir. Biz BMT Təhlükəsizlik Şurasına üzv olanda da, eyni zamanda, Qoşulmama Hərəkatına sədrlik edəndə də Azərbaycanın, doğrudan da, beynəlxalq subyekt olduğunu bütün dünyaya sərgiləməyi bacardıq.

Sonda onu da deyim ki, bu gün Azərbaycan diplomatları qarşısında son dərəcə mühüm bir vəzifə durur. Regiona davamlı və dayanıqlı sülhü gətirmək vəzifəsi. Eyni zamanda, Azərbaycana qarşı son 30 il ərzində yeridilən

bütün vəhşiliklərə görə kompensasiyanın ödənilməsi məsələsidir. Ümid edirəm ki, bizim diplomatlarımız, məhz dediyim kimi, liderimizdən də örnək götürməklə bu vəzifənin öhdəsindən layiqincə gəlməyi bacaracaqlar. Bu layihənin lehinə səs verəcəyəm. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun, Sahib müəllim. Zahid Oruc. Buyurun.

**Zahid Oruc.** Təşəkkür edirəm. Hörmətli sədr, dəyərli millət vəkilləri. Ümumən həmkarlarımızın hamısının çıxışında bir neçə vacib tezisi ümumiləşdirmək lazım gələrsə, aşağıdakıları söyləmək olar.

1. Azərbaycanın ən böyük diplomatı Ulu Öndər Heydər Əliyev idi. O, xaosa məhz o diplomatik istedadı ilə, miqyası ilə qalib gəldi və o kursu möhtərəm cənab Prezident davam etdirdi.

2. Yeni qanun layihəsi qələbəmizin nəticəsidir. Bu, gerçəkdən də belədir. Çünki Azərbaycanın xarici məkanda təkcə coğrafi deyil, həm könül coğrafiyası, həm də siyasi coğrafiyası qələbəmizin hesabına böyüyür.

3. 10 noyabr sənədi. Hərbi meydanda qazandığımız uğurları siyasi sənədlərə daşıya bildik. Onun nəticəsi idi və proses davam edir.

4. Hərb meydanında məğlub olan Ermənistan bütün gücünü diplomatik, informativ, hibrid və sair sahələrə yönəldib. Ona görə də "xüsusi təyinatlı diplomatiyamız" ifadəsi də çox yerinə düşər.

5. Bütün sahələrdə diplomatik fəaliyyət önəmlidir. Amma qeyd etdiyimiz kimi, Ermənistanın sülh danışıqları, delimitasiya prosesini ədliyyə, hüquq orqanlarına, xüsusi ilə də məhkəmə sisteminə daşıması hər bir beynəlxalq

qurumda bir neçə ermənінin, ya erməni əsilli ikinci, üçüncü nəsil ermənінin, ya da onların maraqlarını müdafiə edən şəxslərin mövcudluğu ilə bağlıdır.

6. Azərbaycanın diplomatik sistemindən satqınlar son dərəcə az çıxıb. Bilirsiniz ki, o yalnız Avropa Şurasından 1-2 şəxsin satın alınması ilə baş verib. Bu o deməkdir ki, onlar da millidir.

Ən sonda, bir çoxları bu fikri deyir: ölkənin coğrafiyasını böyüdən diplomatlardır.

Hörmətli sədr, Sizin humanizminizə söykənərək bu məsələyə yaxın, amma bir qədər də fərqli mövzunu hədəf götürən fikirlərimi bölüşmək istəyirəm.

Son 20 ildə məxməri və ya silahlı elə bir inqilab, dövlət çevrilişi və vətəndaş qarşıdurması olmayıb ki, bir ovuc qüvvə qeyri-sabitlik dalğasının bizim ölkəmizə də keçəcəyini iddia etməsin.

2000-ci ildə Suxarto İndoneziyasından Qəddafi Liviyasına, Səddam İraqından Əsəd Suriyasına qədər hamısı Xalq Cəbhəsinin rəngli xəyallarının siyasi qibləgahı olub. Biz dünyanı bir mərkəzdən yönləndirənlərə həsəd aparanları anlayırıq. Lakin qum səhrasındakı cümhuriyyəti dağıdaraq minillik sivilizasiyaları din bayraqlı beynəlxalq terrorçuların əli ilə yıxanları, "Allahu Əkbər" sədaları ilə edam edənləri və milyonlarla qaçqın ordusuna "demokratik inqilab" deyənləri qəbul etmirik.

Bizim də birillik hakimiyyətin sonu çadır şəhərçikləri və çiy kərpiclər məmləkəti olmuşdu. Bir vaxtlar Bismark millətini "dəmir və qan" şüarı ilə birləşdirmişdi. İndi bütün dünya inqilablarının sonu yalnız qan və göz yaşları gətirir.

Gürcülər çoxdandır Corc Buş küçəsindən nifrətlə

keçirlər. Təkcə 1990-cı illərin yox, 30 il sonrakı xəyali cəbhə hakimiyyətinin də müasir şəkli elə Suriyadır. Ararat Mirzoyan dekabrın 2-də Beynəlxalq Cinayət Məhkəməsində çıxışı zamanı bir dəfə də olsun Azərbaycanın, İlham Əliyevin adını çəkmədi. Bizim terror mediamız və haqsız cəbhəsizlər isə millətimizə soyqırım yaşadanları DTX təcridxanasına gətirən lideri necə tribunala verməkdən danışırlar. Gör indi düşmən kimdir?

Adam mübarizəni ləyaqətlə aparar. 44 günlük müqəddəs müharibənin sonunda erməni təhlükəsizlik katibi baş nazirinə məktub yazır ki: “Bir xilas yolumuz var. Azərbaycanın əsas müxalifəti 8 noyabrı məğlubiyyət hesab edir. Qarabağı ermənilərə qaytarmağın yolu Xalq Cəbhəsini hakimiyyətə gətirməkdir”. Baxın, ermənilər siyasi tomoqrafiyamıza baxıb hansı planları qururlar.

İlham Əliyev dünyanın ən demokratik, açıq görüşlü, mərd və hələ ki, tək qalib lideridir. Əsl xalq–millət cəbhəsinin rəhbəri də odur. Qarabağ yolu Qarabağ dalğasında meydana, siyasətə və prezidentliyə gələnlərin hakimiyyət yolunu birdəfəlik bağlayıb. Əllərini qızdırmaq üçün bütün ölkəni yandırmağa hazır olanlar bizi 20 faizi itirilən Gürcüstana, 30 faizi olmayan Ukraynaya, 40 faizi qalan Liviyaya niyə bənzədirlər ki? Bəlkə əksinə, məzlumiyyətə və əsarətə qarşı savaşan xalqlar azərbaycanlıları özlərinə simvol seçib torpaq, azadlıq və mənəvi bütövlük qazansınlar? Çünki biz 100 faiz olmuşuq.

Vətən müharibəmiz etimad referendumuna çevrildi, sevilməyən Ali Baş Komandandan savaş qazanılmır. Bizim əsl azadlıq meydanımız dünyəvi inqilabımızın və qəhrəmanlığımızın zirvəsi olan Şuşadır. Ona görə də İlham Əliyevin prezidentlik müddəti ərazi və siyasi bü-

tövlük günümüzdən – 8 noyabrdan və 20 sentyabrdan hesablanmalıdır. Çünki qalibiyyət təqvimini və yeni milləti yaradan da odur.

Ən böyük diktatura sevimli yazıçınız Əkrəm Əylislinin dediyi “xaos diktaturası”dır. Bütün siyasi qüvvələrlə qardaşlığın tək bir yolu var, qələbəmizə müxalif olmayın. Bir daha təşəkkür edirəm, hörmətli sədr. Sağ olun.

**Sədrlik edən.** Zahid müəllim, xahiş edirəm, məsələləri bir-birinə qatmayın. Siz presedent yaradırsınız. Sizdən sonra kimsə başqa mövzu ilə bağlı danışsa... Danışdığınız mövzu çox vacibdir, çox əhəmiyyətlidir. Ona görə də mən Sizi dayandırmadım, amma xahiş edirəm, məsələləri bir-birinə qatmayın. Tahir Rzayev. Tahir müəllim, buyurun.

**Tahir Rzayev.** Çox sağ olun. Hörmətli sədr, hörmətli həmkarlar və qonaqlar. Azərbaycanın beynəlxalq aləmdə qazandığı uğurlar, xarici ölkələrlə əlaqələrin genişləndirilməsi, möhkəmləndirilməsi, dünyada sülhün və əmin-amanlığın təmin edilməsi sahəsində göstərilən səylər, maraqlarımızın, təşəbbüslərimizin dəstəklənməsi ilk növbədə Prezidentimiz cənab İlham Əliyevin düşünülmüş diplomatik gedişlərinin, xarici siyasətinin, diplomatik xidmətin təkmilləşdirilməsi üçün həyata keçirdiyi tədbirlərin nəticəsidir.

Azərbaycanın müstəqilliyinin, ərazi bütövlüyünün, milli təhlükəsizliyinin və milli maraqlarının qorunması dövlətimizin daxili və xarici siyasət xəttinin əsasıdır. Bu istiqamətdə görülən işlər düşmən üzərində tarixi qələbəmizi təmin etmiş, ölkənin qüdrətini yüksəltmişdir.

Biz diplomatiya sahəsində də qələbə qazanmışıq. Mövcud reallıqlar, dünyada baş verən hadisələr, ikili standartlar, dövlətimizə qarşı yönələn məkrli niyyətlər,

yalan, şantaj kampaniyası, müstəqil siyasətimizi gözü götürməyən qüvvələrin təpkiləri diplomatik xidmətin səviyyəsini, səmərəliliyini, diplomatik sahədə çalışanların peşəkarlığını, məsuliyyətini yüksəltməyi tələb edir.

Təqdim olunan Diplomatik xidmət haqqında Azərbaycan Respublikasının qanun layihəsi məhz bu vəzifələri – suverenliyimizin, milli təhlükəsizliyimizin, sülhün qorunmasını, əməkdaşlığın inkişaf etdirilməsini xarici siyasət vasitələri və diplomatik üsullarla təmin etməyi özündə ehtiva edir, daha yaxşı xidmətin təşkilinə hesablanmışdır. Xeyli əvvəl qəbul olunmuş qanundan fərqli olaraq, bu qanun daha mütərəqqidir, daha əhatəlidir, dövrün tələblərinə uyğundur.

Qanun layihəsi diplomatik xidmət orqanlarının fəaliyyət istiqamətlərini, funksiyalarını, orqan əməkdaşlarının vəzifələrini, hüquqlarını, onlara verilən imtiyazları, məsuliyyət tədbirlərini hərtərəfli əks etdirir. Diplomatik xidmət orqanı əməkdaşlarının və ailə üzvlərinin təminatı və kompensasiyalarının qanunla müəyyən edilməsi, tənzimlənməsi, sosial-maddi imkanlarının yaxşılaşdırılması, onlara aid nəqliyyat, icarə, təhsil, tibbi xidmət, birdəfəlik yerləşmə, müavinət və digər müəyyən xərclərin dövlət tərəfindən qarşılanması təqdirəlayiqdir və bu, dövlətin qayğısı, diqqəti kimi qiymətləndirilməlidir.

Parlament diplomatiyasının uğurları da dəyərlidir və xarici siyasətin mütəşəkkilliyinə imkanlar yaradır. Bu qanunun qəbul edilməsi diplomatik xidmət sahəsində yeni bir mərhələnin əsasını qoyacaq və diplomatlarımızın, bu sahədə çalışanların fəallığına, vətən, xalq mənafeyi uğrunda mübarizələrinə yeni bir təkan verəcək, Azərbaycan diplomatiyasının uğurlarını daha da artıracaqdır.

Qanun layihəsi birinci oxunuşun tələblərinə tam cavab verir. Sənədin hazırlanmasında və təqdim olunmasında əməyi olan həmkarlarıma, hər bir kəsə minnətdarlığımı bildirirəm və qanunun lehinə səs verəcəyəm. Diqqətinizə görə çox sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Tahir müəllim. Ramil Həsən. Buyurun.

**Ramil Həsən.** Hörmətli Sahibə xanım, dəyərli millət vəkilləri, əziz Xarici İşlər Nazirliyinin nümayəndələri və media nümayəndələri. Biz çox vacib bir qanun layihəsini müzakirə edirik. Böyük məmnuniyyət hissi ilə qeyd etmək istərdim ki, birinci oxunuşda müzakirə etdiyimiz Diplomatik xidmət haqqında qanun layihəsi Azərbaycan dövlətinin uğurla həyata keçirmiş olduğu islahatlar siyasətinin tərkib hissəsidir. Əlbəttə ki, bundan hər birimiz şərəf duymalıyıq.

Burada qeyd olundu, "Diplomatik xidmət haqqında" Qanun 2001-ci ildə ilk dəfə qəbul edilib. Məyusluq hissi ilə olsa da deməliyəm ki, o dövrdə biz məğlub olmuş bir ölkənin diplomatları idik. Amma bu gün böyük fəxarət hissi ilə bildirirəm ki, məhz Ali Baş Komandan, Azərbaycanımızın baş diplomatı, dövlət başçımız cənab Prezident İlham Əliyevin başçılığı ilə Zəfər qazanmış bir ölkənin diplomatiyasına aid olan Xarici İşlər Nazirliyimiz və xarici siyasət strategiyasını uğurla həyata keçirən dəyərli diplomatlarımız var. Bu gün artıq biz Zəfər qazanmış bir ölkənin diplomatiyası ilə bağlı qanunun müzakirəsini aparırıq.

Hörmətli xanım sədr, bir neçə çox vacib məqamı bölüşmək istərdim. Birincisi ondan ibarətdir ki, son illər ərzində Azərbaycan Xarici İşlər Nazirliyi və ölkə parlamenti

ənənəvi diplomatiya və parlament diplomatiyasının harmoniyasını təşkil edərək birlikdə ölkə başçısının qoymuş olduğu xətt üzrə çox uğurlu bir siyasət həyata keçirməkdədir. Bu, çox vacib bir məqamdır və bu, ölkəmizin monolit xarici siyasət strategiyasının davamında böyük əhəmiyyət kəsb edir. Xanım sədr, bilavasitə Sizin rəhbərliyiniz ilə həm parlament diplomatiyası, həm də beynəlxalq xarici əlaqələr üzrə fəaliyyət göstərən beynəlxalq təşkilatlardakı parlamentari qruplarımız Xarici İşlər Nazirliyi ilə məsləhətləşmələr çərçivəsində bu işləri uğurla apardıqca, bizim ümumi işimizə də böyük töhfə verir.

Diplomatik xidmət haqqında qanun layihəsinin müzakirəsi ilə bağlı komitə toplantısında da çox məhsuldar bir görüş keçirildi. Mən fürsətdən istifadə edərək bununla bağlı da Sizə təşəkkür etmək istəyirəm.

Bu gün Xarici İşlər Nazirliyimiz – bu istiqamətə məsul olan strukturumuz çox gözəl bir qanun layihəsi hazırlayıb müzakirəmizə təqdim edib. Bu qanun layihəsi bizim xarici siyasət strategiyamızda uğurla fəaliyyət göstərən, mən deyərdim ki, Azərbaycan dövlətinin aynasını təşkil edən diplomatlarımızın hüquqları, onların seçmək, seçilmək, vəzifəyə təyin edilmə, vəzifədən azad edilmə kimi məsələlərində bu günə qədər mövcud olan bir çox boşluqların doldurulmasına inanılmaz töhfə verəcəkdir.

Mən də vaxtı ilə diplomatik xidmətdə fəaliyyət göstərmişəm. Bu gün Azərbaycan parlamentinə diplomatik xidmətdən gələrək burada öz töhfəsini verməyə davam edən çox dəyərli diplomatlarımız var. Xarici İşlər Nazirliyinin hazırlamış olduğu bu yeni sənəddə beynəlxalq təşkilatlara ezam olunan, orada fəaliyyət göstərən diplomatlarımızın geri qayıtdığı zaman sərəncama götürülməsi, onların

bütün ehtiyac və problemlərinin qarşılanması, ailə üzvlərinin parçalanmasının qarşısının alınması, humanizm prinsiplərindən irəli gələn ailənin birlikdə yaşaması və bərabər fəaliyyət göstərə bilməsi, xarici ölkəyə ezam olunan diplomatla bərabər getməsi üçün lazım olan hüquq və sosial haqlarının qorunması kimi bir sıra məsələlər öz əksini tapmışdır. Bunu bilavasitə ölkəmizin dayanıqlı inkişaf strategiyasının tərkib hissəsi kimi qəbul etmək lazımdır.

Eyni zamanda, stajın qorunması məsələsinə toxunmaq istərdim. Beynəlxalq təşkilatlara ezam olunan diplomatlarımız bu günə qədər bu problem ilə əlaqədar bəzən çox çətin vəziyyətlə qarşılaşırdılar. Bu problem də bu qanun layihəsi ilə ortadan qaldırılacaqdır. Az öncə də burada vurğulandı, xaricdə fəaliyyət göstərib geri qayıdan, Azərbaycan dövlətinin xarici siyasət strategiyasına layiqli töhfələr verən diplomatlarımız, əlbəttə ki, artıq sərəncama götürüləcəkləri üçün həm stajlarının qorunması təmin olunacaq, həm də onların bilik və təcrübəsindən faydalanmaq üsulları bu qanun layihəsi ilə tənzimlənəcəkdir. Bu da çox vacib addımlardan biridir.

Eyni zamanda, diplomatlarımızın həyat səviyyəsinin yaxşılaşdırılması kimi vacib məsələ də qanun layihəsində öz əksini tapmışdır.

Son olaraq bir şeyi də vurğulamaq istəyirəm. Diplomatların ailə üzvlərinin, övladlarının təhsili ilə bağlı olan məsələ ilə əlaqədar mən komitələrin birgə iclasında da fikirlərimi bildirmişdim. Əminəm, gələcəkdə nəzərə alınacaqdır ki, təhlükəli ölkələrdə fəaliyyət göstərən diplomatlarımızın ailə üzvləri və ya övladlarının başqa bir ölkədə təhsil aldığı zaman təhsil xərcləri qarşılansın.

Bir daha təşəkkür etmək istəyirəm və qanun layihəsinin lehinə səs verəcəyəm, hər birinizi də bu vacib sənədi dəstəkləməyə dəvət edirəm. Çox sağ olun, hörmətli xanım sədr.

**Sədrlik edən.** Çox sağ olun, Ramil müəllim. Aydın Mirzəzadə. Buyurun, Aydın müəllim.

**Aydın Mirzəzadə.** Təşəkkür edirəm, xanım sədr. Bu gün dövlətçiliyimizə xidmət edəcək çox vacib bir qanun layihəsini müzakirə edirik. Bu, sıradan bir qanun deyil. Bu, dövlətimizin gücünü, beynəlxalq birlikdə nüfuzunu göstərən xarici siyasətinin nə cür formalaşdığının mexanizmini göstərən bir qanun layihəsidir.

Düzdür, bizim diplomatik fəaliyyət barəsində 2001-ci ildə qəbul edilmiş bir qanunumuz var idi. Amma həmin qanunun qəbulundan 23 il keçir. Dünya dəyişib, Azərbaycan dəyişib, bir çox yeni istiqamətlər meydana gəlib. Ona görə də köhnə qanunda dəyişikliklər etməkdənsə, yenisini qəbul etmək, əlbəttə ki, çox düzgün bir üslubdur.

Azərbaycan bu gün beynəlxalq birliyin layiqli üzvüdür. Ulu Öndər Heydər Əliyevin hakimiyyətə gəlişi ilə Azərbaycan dirçəldi və öz dövlətçilik tarixinin yeni səhifələrini yazdı. Bu gün biz qürurla deyə bilərik ki, Azərbaycan dünyanın diqqətində olan bir dövlətdir. Biz hazırda diplomatik fəaliyyətimizi inkişaf etmiş demokratik dövlətlərin diplomatik təcrübəsinə deyil, öz diplomatik təcrübəmizə əsasən qururuq. Vaxtaşırı Azərbaycanda keçirilən beynəlxalq tədbirlərin ölçüsü, nüfuzu onu göstərir ki, Azərbaycanın xarici siyasəti uğur qazanır və milli maraqlarımızın qorunmasına, Azərbaycanın haqq səsinin eşidilməsinə xidmət edir. Məhz diplomatiyamızın uğurlarından hesab etmək olar ki, torpaqlarımızın işğaldan azad edilməsinə

bir-iki dövləti çıxmaq şərti ilə dünya haqq qazandırdı və bizim tərəfimizdə oldu.

Vaxt var idi ki, 1990-cı illərin əvvəllərində biz əsas dövlətlərdə səfirliyimizin olmasını böyük bir arzu hesab edirdik. Amma son məlumatlara görə artıq bizim xaricdə 87 diplomatik missiyamız fəaliyyət göstərir və bu say durmadan artır. Diplomatik xidmətdə çox sayda dəyərli vətəndaşlarımız var. Onlar ölkəmizi layiqincə təmsil edirlər. Vaxtaşırı səfirlərimizin hansısa bir ölkədə Azərbaycanın haqq səsini tanıtmasına dair uğurlu xəbərlər eşidirik.

Eyni zamanda, son parlament seçkilərində Xarici İşlər Nazirliyinin bir neçə əməkdaşının parlamentə deputat seçilməsinin özü də onların uğurlu fəaliyyətindən xəbər verir. Çox hörmətli Polad müəllim Bülbüloğlunu salamlayırıq. Onun parlamentdə olması, şübhəsiz ki, parlamentə şərəf gətirir. Günay xanım Əfəndiyeva, Qaya Məmmədov, Rizvan Nəbiyev, Zaur Şükurov kimi diplomatlarımız da bu gün Azərbaycan parlamentində öz seçicilərinin etimadını layiqincə doğruldurlar.

Qanunla bağlı həmkarlarımın dediklərini dəstəkləyirəm, təkrarlamaq istəmirəm. Amma bir neçə təklifim olardı. Bəlkə də bu təkliflərim artıq Xarici İşlər Nazirliyində həll edilib. Yenə də səsləndirməyi özümə borc bilirəm.

Mən hesab edirəm ki, xarici ölkələrdə diplomatik fəaliyyətdə olan diplomatın ailə üzvlərinin davranışı da böyük əhəmiyyət daşıyır. Buna görə də xarici diplomatik nümayəndəliklərimizə göndərilən işçilərin ailə üzvlərinin də əvvəlcədən həmin ölkənin tarixi, mədəniyyəti, xüsusiyyətləri, baş verə biləcək təhdidlər barəsində məlumatlandırılmasını, ölkənin dilinin, heç olmasa, baza hissəsinin ailə üzvlərinə də öyrədilməsini əhəmiyyətli sayıram.

Bəlkə də bu praktika var, amma hər halda bunu bir dəfə də səsləndirmək istədim.

İkincisi, diplomatlarımız xaricdə bir müddət xidmət etdikdən sonra Xarici İşlər Nazirliyinə qayıdırlar. Mən hesab edirəm ki, onların vaxtaşırı işğaldan azad olmuş ərazilərə, hərbi hissələrimizə, universitetlərimizə, sənaye müəssisələrinə, adi satış mərkəzlərinə getmələri olduqca vacibdir. Onların Azərbaycanda olmadığı dövrdə burada həyat mürəkkəbləşir, zənginləşir. Yəni mümkündür ki, onlar müəyyən məsələlərdən xəbərdar olmaya bilsinlər. Ona görə də onların geri qayıdarkən iç Azərbaycanı daha yaxşı tanıması sonradan diplomatik fəaliyyətlərinə uğur gətirə bilər.

Üçüncü təklifim isə ondan ibarətdir ki, dünya müxtəlif və rəngarəngdir. Ayrı-ayrı regionlar tarixi, mədəni, dini məsələlərdə fərqlənirlər. Ona görə də ayrı-ayrı regionlar üzrə diplomatlarımızın ixtisaslaşması, hesab edirəm ki, xarici siyasətimizin daha uğurlu həyata keçirilməsinə xidmət edərdi. Qanun layihəsini uğurlu hesab edirəm və onun lehinə səs verəcəyəm.

**Sədrlik edən.** Sağ olun. Təklifləriniz, təbii ki, ikinci oxunuşa aiddir. Polad Bülbüloğlu. Buyurun, Polad müəllim.

**Polad Bülbüloğlu.** Hörmətli xanım sədr, hörmətli həmkarlar və media nümayəndələri. Burada bu qanun layihəsi haqqında kifayət qədər danışıldı və ətraflı məlumat verildi. Məsələ aydındır.

Bilirsiniz ki, mən 18 il Rusiya kimi böyük və mürəkkəb bir ölkədə səfir vəzifəsində çalışmışam və bu işlərin içində olmuşam. Ona görə istərdim bir daha vurğulayım ki, bu qanun çox gözlənilirdi. Bizim bu sahədə çalışan diplomat-

larımızın son 20 il ərzində müxtəlif problemləri olurdu. Bu qanun layihəsi, demək olar ki, həmin problemlərin əksəriyyətini həll edəcək və diplomatlarımızın xaricdə rahat işləməsi üçün çox gözəl imkanlar yaradacaq, onları bundan sonra daha səmərəli işləməyə sövq edəcəkdir.

Mən hörmətli Prezidentimizə dərin təşəkkürümü bildirmək istəyirəm. Haradasa 1 il bundan öncə diplomatların maaşları əhəmiyyətli dərəcədə artırıldı. Bu yeni qanunla isə bütün digər problemlər və məsələlər də həll olunur. Mən qeyd etmək istərdim ki, Xarici İşlər Nazirliyinin indiki rəhbərliyi səfirliklərin işinə çox diqqətlə yanaşır, problemləri vaxtında həll etməyə çalışır. Vəziyyət, demək olar ki, ildən-ilə düzəlir. Amma artıq bu qanun qəbul olunandan sonra isə tam qanuni əsaslarla bütün problemli məsələlər öz həllini tapır. Mən bunları sadalamaq və vaxtınızı almaq istəmirəm.

Sadəcə, onu demək istəyirəm ki, artıq məsələ aydındır və geniş şəkildə müzakirə olundu. Hələ bunun ikinci oxunuşu da olacaq. Mən bu qanunu hazırlayanlara bütün diplomatlar adından dərin təşəkkürümü bildirmək istəyirəm və yeni-yeni uğurlar diləyirəm. Bütün həmkarlarımı bu qanuna səs verməyə çağırıram. Diqqətinizə görə sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Polad müəllim. Hörmətli həmkarlar, 4 nəfər yazılıb. Mən əminəm ki, onlar da bütün çıxış edənlər kimi bu qanuna dəstək olacaqlar. Gəlin, imkan verək, danışsınlar. Vüqar Rəhimzadə.

**Vüqar Rəhimzadə**. Təşəkkür edirəm, xanım sədr. Dəyərli həmkarlar, əziz qonaqlar, hörmətli jurnalistlər. Bu gün, doğrudan da, ölkəmiz, dövlətimiz və diplomatiyamız üçün kifayət qədər əhəmiyyətli, vacib bir qanunun müzakirəsini aparırıq. Bu sənəd ölkənin idarəçiliyində,

ölkənin mövcudluğunda, Azərbaycanın dünya siyasətində artan rolunun təsdiqində əhəmiyyətli bir addımdır. Hesab edirəm ki, əgər hər hansı bir ölkənin diplomatiyası, beynəlxalq münasibətlər sistemində əlaqələri güclüdürsə, elə o ölkənin özü güclüdür. Əgər ölkə güclüdürsə, onun vətəndaşı və onun siyasəti də güclüdür. Ona görə də bugünkü dönəmdə aparılan bu siyasətin məğzində, təbii ki, belə bir qanunun qəbul olunması vacibdir. Mən qanunun ərsəyə gəlməsində əməyi olan hər kəsə təşəkkür edirəm.

Doğrudan da, ölkənin siyasi mühitində, beynəlxalq münasibətlər sistemində artan roluna xüsusi önəm veriləcək və bu qanun yeni bir ab-hava gətirəcək. Bu qanunun qəbul olunması beynəlxalq əlaqələr sisteminin daha da mükəmməl qurulmasında müstəsna rola malik olacaqdır.

Mən bir anlığa bizim müstəqilliyimizin ilk illərini xatırladım. Ağır bir dövr idi. Azərbaycanda, ümumiyyətlə, beynəlxalq əlaqələrin qurulması ilə bağlı kifayət qədər xaotik bir vəziyyət var idi. Ulu Öndər Heydər Əliyev Naxçıvan Ali Məclisinin sədri olduğu dönəmdə xarici münasibətlər sisteminə xüsusi önəm verir və yüksək diqqət göstərirdi. Onun qonşu dövlətlərlə əlaqələrin qurulması, onlarla siyasi münasibətlərin yaxşılaşmasına göstərdiyi qayğının nəticəsi idi ki, Azərbaycanla bağlı kifayət qədər uğurlu işlər görüldü.

Bizi 2001-ci ildən kifayət qədər böyük bir zaman ayırır. Ötən 20 ildən artıq bir dövr ərzində, əlbəttə ki, həyatımız dəyişib, ölkəmizdə kifayət qədər uğurlu irəliləyişlərə şahid olmuşuq. Azərbaycanın xarici siyasətində kifayət qədər münbit şərait var. Bu baxımdan yeni qanunun qəbul olunması bu günün tələbidir.

44 günlük Vətən savaşında biz təkcə cəbhə bölgəsində

qələbə qazanmadıq. Müzəffər Ali Baş Komandan, möhtərəm cənab Prezidentimiz dünyanın 30-dan artıq aparıcı media qurumlarına verdiyi müsahibələrlə diplomatiyamızın ən böyük qələbəsini ortaya qoydu. Təbii ki, diplomatiya sahəsində qələbə təmin olunmasa idi, digər qələbələrin təminatında da çox ciddi çətinlik yaranardı. Ona görə də bu qanunun qəbul olunması birmənalı şəkildə vacibdir, lazımlıdır.

Burada parlament diplomatiyası ilə bağlı deyildi. Həqiqətən də, parlament diplomatiyası son illər kifayət qədər uğurlu işləri ilə xarakterizə olunur. Yüksək səviyyədə aparılan bu diplomatiyanın da ölkəmizin beynəlxalq münasibətlər sistemində layiqli yer tutmasında, əlaqələrimizin inkişafında böyük əhəmiyyəti vardır. Bu baxımdan düşünürəm ki, bu qanun diplomatiya və xarici əlaqələr sahəsində çox mühüm qanunlardan biri kimi gələcək fəaliyyətimizə mühüm töhfələr verəcək. Mən bu qanunun qəbul olunmasına səs verəcəyəm və həmkarlarımı da bu qanunun lehinə səs verməyə çağırıram. Təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Vüqar müəllim. Hikmət Məmmədov. Buyurun.

**Hikmət Məmmədov**. Hörmətli xanım sədr və hörmətli millət vəkilləri. Mən hər şeydən öncə çox hörmətli komitə sədrlərimizin hər birinə təşəkkür edirəm ki, qanun layihəsi haqqında həm onun xidməti fəaliyyəti baxımından, həm də sosial təminat məsələləri nöqteyi-nəzərindən çox geniş məlumat verdilər. Mən istəyirəm, diplomatiya haqqında danışan zaman Azərbaycanın xarici siyasəti haqqında dərslik yazmış bir müəllif kimi müşahidə etdiyim və milli diplomatiyamızın 1991-ci ildən bu günə qədər davam edən fəaliyyətini birlikdə analiz edək. Deyirlər ki,

diplomatiya mümkün olmayanı mümkün etmək sənətidir, bu, doğrudan da, belədir. Əslində, 1991-ci ildən 1993-cü ilə qədər də milli diplomatiyamız mümkün olmayanı mümkün edirdi, ancaq milli maraqlarımızın ziddinə. Ona görə ki, dostu düşmən etmək ən asan işdir. O dövrdə milli diplomatiyamız dostlarımızı bizə düşmən etməyi bacardı. 1993-cü ildən sonra isə yenə diplomatiyamız düşmənlərimizi dost etməklə mümkün olmayanı mümkün etdi. Ona görə də bu mübahisəsiz məsələ haqqında danışanda bir qədər diqqətli olaq və bunu qiymətləndirməyi bacaraq. Ədalət naminə və əldə etdiyimiz bu tarixi Zəfər naminə! Bu mənim milli diplomatiyanın keyfiyyətləri haqqında fikirlərim idi.

Bir də var, milli diplomatiyanın gücü. Siyasi elm milli gücü qiymətləndirən zaman onu komponentlərə – kəmiyyət və keyfiyyət ünsürlərinə bölür. Milli gücün kəmiyyət ünsürləri ölkənin coğrafiyasıdır, əhali sayıdır, sənayeləşmə dərəcəsidir, təbii sərvətləridir və sair. Milli gücün mənəvi komponentləri isə milli xarakterdir, milli psixologiyadır, milli mənəviyyatdır. Eyni zamanda, siyasi elm bütün bunların hamısını, sadəcə, potensial hesab edir, yəni milli gücün potensialı sayır və deyir ki, əgər milli diplomatiya bu güc komponentlərini səfərbər edib milli maraqların realizə edilməsinə yönləndirə bilmirsə, demək, bu, hələ, sadəcə, potensialdır. Ona görə də mən düşünürəm ki, Azərbaycanın milli diplomatiyası, bax, bu işi görməyi bacardı. Biz gördük ki, doğrudan da, milli gücümüzün kəmiyyət və keyfiyyət komponentləri necə səfərbər edildi, milli maraqlarımız necə bu nöqtəyə gətirildi.

Diqqətimi çəkən bir məsələ də var. Biz 2001-ci ildə qəbul edilmiş qanuna əlavə və düzəlişlər etmirik, adətən

belə edirdik. Tamamən yeni bir qanun qəbul edirik. Ona görə ki, bunun çox ciddi əsasları var. Biz yeni bir mərhələyə qədəm qoymuşuq. 2020-ci ildəki tarixi Zəfərimizdən sonra milli diplomatiyamızın qarşısında tamamilə yeni vəzifələr durur.

Ona görə də mən bu qanun layihəsini hazırlayan diplomatlarımıza, xarici siyasət institutlarımızın hər birinə təşəkkür edirəm.

Çox hörmətli xanım sədr, Sizin dediyiniz məsələ də aktualdır. Yəni qeyri-ənənəvi diplomatiya, qeyri-professional diplomatiya olaraq parlament diplomatiyasının professional diplomatiya institutlarımız ilə əməkdaşlığı da dediyiniz o milli məqsədlərimizə çatmağa çox böyük töhfə verir. Ona görə də mən bu qanun layihəsinin lehinə səs verəcəyəm. Diqqətinizə görə sağ olun.

**Sədrlik edən.** Sağ olun. Elşən Musayev. Buyurun.

**Elşən Musayev**. Təşəkkür edirəm, xanım sədr. Hər kəsi salamlayıram. Mən layihə ilə bağlı komitə iclasında öz müsbət fikirlərimi bildirmişəm. Bu gün burada çıxış etməyimin səbəbi isə burada gedən ritorik polemikaya replika vermək istəyimdir.

Hörmətli həmkarım Əli Hüseynli öz çıxışında çox doğru olaraq qeyd etdi ki, Heydər Əliyevə qədər Azərbaycan diplomatiyası bərbad vəziyyətdə olub və yalnız onun gəlişindən sonra bu istiqamətdə inkişaf sezilib. Eyni zamanda, digər hörmətli həmkarım Qüdrət Həsənquliyev də öz prizmasından haqlı olaraq söylədi ki, indi bizim bu qədər uğurlarımız var, amma yenə də beynəlxalq həmlələr səngimir.

Mən bu barədə fikrimi və müşahidə etdiyim fərqi sizlərlə bölüşmək istəyirəm. Biz o vaxt zəif olduğumuza

görə vururdular, indi isə güclü olduğumuza görə vururlar. O zamanlar konkret olaraq İranla bağlı diplomatik böhranlı ziddiyyətin əsas səbəbi dövlət başçısı olmuş şəxsin son dərəcə ehtiyatsız açıqlamaları idi. İndi isə səbəbsizdir. Nəhayət, o zamanlar diplomatiyanın başında diplomatik protokolun, ümumiyyətlə, varlığından belə xəbərdar olmayan, – ingilis dilini, rus dilini qoyuram bir kənara, – heç azərbaycanca belə fərli-başlı danışa bilməyən, fizika müəllimi olan Tofiq Qasımov dayanırdı. İndi isə hər birimizin fəxri olan Ceyhun Bayramov durur. Diqqətinizə görə minnətdaram.

**Sədrlik edən.** Çox sağ olun. Sonuncu çıxış. Günay Əfəndiyeva. Günay xanım, buyurun.

**Günay Əfəndiyeva.** Çox sağ olun, hörmətli Sahibə xanım. Hörmətli xanım sədr, hörmətli millət vəkilləri. XX əsrin əvvəllərində ilk demokratik respublikamızın cəmi 23 ay çəkən müstəqil diplomatik fəaliyyətindən yalnız 70 il keçdikdən sonra Azərbaycan bu fəaliyyəti, demək olar ki, sıfırdan başlayaraq davam etdirdi. XX əsrin sonlarında isə artıq dünya xəritəsi tamam dəyişmiş, mürəkkəbləşmiş, böyük dövlətlərin ikili standartları beynəlxalq aləmdə daha artıq riyakarlıq və ikiüzlülük yaratmışdı. Belə bir şəraitdə Ulu Öndər Heydər Əliyev hakimiyyətə gəldi və həmin ikili standartlara qarşı elə bir diplomatik fəaliyyətin əsasını qoydu ki, Azərbaycan müstəqilliyini qoruya bildi. Ölkəmiz dünya birliyində nəinki öz yerini tutdu, həm də bu yeri möhkəmləndirdi, xalqımızın nüfuzunu və hörmətini artırdı.

Hörmətli həmkarlar, biz hamımız çox yaxşı bilirik ki, Azərbaycan Ermənistan tərəfindən vəhşi bir təcavüzə məruz qaldığı halda ikili standartlar bizi təcavüzkar kimi

qələmə verməyə başladı. Cənab Prezident İlham Əliyev bu diplomatik ənənəni qüdrətli bir ordu quruculuğu ilə bərabər daha da inkişaf etdirdi və nəhayət, tarixi Zəfərimiz əldə olundu. Bu Zəfər, eyni zamanda, diplomatik bir qələbə idi. Məhz bu diplomatik bacarıq və hərbi hünər, cəsarətli və səriştəli lider Birləşmiş Millətlər Təşkilatının Qarabağla bağlı 30 il bir tərəfdə yatıb qalmış qətnamələrini təkbaşına yerinə yetirdi. Bu diplomatik fəaliyyət nəticəsində Azərbaycan BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçildi, Qoşulmama Hərəkatı kimi nüfuzlu quruma sədrlik etdi. Son 15 ildə bu cür böyük uğurların, qürurverici faktların sayı çoxdur. Mən dünya miqyaslı, bəşəri əhəmiyyətli bir diplomatik hadisə olan COP29-u bir daha xüsusi qeyd etmək istəyirəm. Həmin ikili standartların açıq-aydın maneçilik və düşmənçilik cəhdlərinə baxmayaraq, COP29-un Bakıda keçirilməsi təşkilatçılıq baxımından son dərəcə əhəmiyyətli, bəşəri baxımdan olduqca aktual, məzmun baxımından da Azərbaycanı dünya birliyinə özü öz taleyinin sahibi olan müstəqil bir respublika kimi diqqət mərkəzinə çevirdi. Bu da diplomatik və mənəvi bir qələbə idi.

Mədəniyyət sahəsində diplomatik uğurlarımızdan danışarkən Azərbaycanın Birinci vitse-prezidenti hörmətli Mehriban xanım Əliyevanın təşəbbüsü və dəstəyi ilə Azərbaycanın neçə-neçə mədəni, mənəvi irs nümunələrinin UNESCO siyahılarına qəbul olunmasını və dünyada tanınmasını qeyd etmək istəyirəm.

Hörmətli həmkarlar, mən şübhə etmirəm ki, Diplomatik xidmət haqqında qanun layihəsinin qəbul edilməsi diplomatik xidmətin əsas vəzifələrinin, yəni dövlətin beynəlxalq arenada maraqlarının təmsil edilməsi, beynəlxalq

müqavilələrin bağlanması, onların icrasına nəzarət, vətəndaşlarımızın xaricdə hüquqlarının qorunması, investisiyaların cəlb edilməsi və bir sıra başqa vəzifələrin yerinə yetirilməsi sahəsində əhəmiyyətli rol oynayacaq, qanunvericilik bazası daha da aydınlaşacaqdır.

Azərbaycan mürəkkəb geosiyasi şəraitdə və coğrafiyada yerləşir. Avropa və Asiya arasında enerji qovşağı kimi çıxış edir. Şərq-Qərb nəqliyyat dəhlizi və Cənub Qaz Dəhlizi kimi iri beynəlxalq layihələrin əsas iştirakçılarındandır. Bu baxımdan da diplomatik fəaliyyətin tənzimlənməsi üçün hüquqi bazanın yaradılması zərurət doğurur. Düşünürəm ki, bu diplomatik qanunun qəbul edilməsi institusional bazanı gücləndirəcək, diplomatik xidmətin strukturunu və funksiyalarını inkişaf etdirəcək və diplomatlarımızın fəaliyyətini daha da mükəmməlləşdirəcəkdir. Mən də hesab edirəm ki, layihə, həqiqətən, professionalca tərtib olunub. Diplomatiya sahəsində 20 il çalışan bir şəxs kimi bu layihəyə məmnuniyyətlə səs verəcəyəm. Çox sağ olun, təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Günay xanım. Hörmətli həmkarlar, müzakirələr bitdi, 16 nəfər çıxış etdi. Hörmətli həmkarlar, mən Günay xanıma söz verəndə eşitdim, bəziləri belə, azad olmuş kimi nəfəs aldılar ki, nəhayət, müzakirələr bitdi. Ancaq siz yaxşı bilirsiniz ki, bu müzakirələr hamısı stenoqramda qalır. Bu qanunu artıq 20 ildən çox idi ki, hamı gözləyirdi və hörmətli həmkarlar, sizin stenoqramda qalan çıxışlarınız bu qanunun vacibliyini və lazımlılığını bir daha təsdiq edir. İllər keçəcək, ancaq bunlar qalacaq. Ona görə də mən hamıya söz verdim. Mən düşünürəm ki, birinci oxunuşda daha çıxış etmək istəyən yoxdur. Bəzi çıxışlar ikinci oxunuşun

tələblərinə uyğun çıxışlar idi. Mən sonra xahiş edəcəyəm, onları ikinci oxunuşda nəzərə alasınız.

Fərid müəllim, Siz şöbələrə tapşırın.

Hörmətli həmkarlar, mən düşünürəm ki, hamı razı qaldı.

İndi isə hörmətli həmkarlar, mən səsvermə proseduruna keçəcəyəm. Xahiş edirəm, 4-cü məsələdə olan qanun layihəsinə, yəni Diplomatik xidmət haqqında qanun layihəsinə münasibət bildirin. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.38 dəq.) |
|---|---|
| Lehinə | 111 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 112 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi birinci oxunuşda qəbul edildi.

İndi isə 5-ci məsələyə səs verməyinizi xahiş edirəm.

| **Səsvermənin nəticələri** | (saat 12.38 dəq.) |
|---|---|
| Lehinə | 110 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 110 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, bu qanun layihəsi də birinci oxunuşda qəbul edildi.

Hörmətli həmkarlar, biz gündəliyin 6-cı məsələsinə keçirik və bu məsələ Şəhərsalma və Tikinti Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsidir. Layihəyə Hüquq siyasəti və dövlət quruculuğu komitəsində baxılmışdır. Məsələyə dair məlumat vermək üçün komitənin üzvü hörmətli Nurlan Həsənova söz verirəm. Nurlan müəllimə hələ söz verməmiş, mən xahiş edirəm, qonaqlarımızı yola salın. Bizim o biri qonaqlarımız da hələ gəlməyib, gələcəklər. Nurlan müəllim, buyurun.

**Nurlan Həsənov,** *Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü.*

Təşəkkür edirəm. Hörmətli Sahibə xanım, dəyərli həmkarlar. Son statistik məlumatlara əsasən 2024-cü ildə elektriklə çalışan nəqliyyat vasitələrinin sayı əvvəlki illərə nisbətən təxminən 60 faiz artmışdır. Bu statistika bu gün artan templə davam edir. Elektron nəqliyyat vasitələrindən istifadəni stimullaşdırmaq üçün dövlətimiz tərəfindən müəyyən tədbirlər həyata keçirilib. Vergi və gömrük güzəştləri tətbiq edilib. Təqdim olunan layihə də bu trendin bir növ davamıdır və elektron avtomobillərdən istifadə edən vətəndaşlarımızın rahatlığı üçündür.

Layihənin konkret olaraq mahiyyəti ondan ibarətdir ki, elektriklə çalışan nəqliyyat vasitələri üçün elektrik enerjisi doldurucularının hər hansı tikinti obyektinin tikinti aparılmayan torpaq sahəsində və ya fərdi yaşayış evlərinin həyətyanı torpaq sahəsində quraşdırılması üçün hər hansı bir xüsusi icazə alınmasına ehtiyac duyulmayacaq. Burada hədəf qanunvericiliyimizi günün tələblərinə uyğunlaşdırmaq, elektron nəqliyyat vasitələrindən istifadəni stimullaşdırmaq, yaşıl enerjiyə keçidi dəstəkləmək və nəticədə ekoloji vəziyyətin yaxşılaşmasına töhfə verməkdir. Deputat

həmkarlarımdan layihəni dəstəkləmələrini xahiş edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Nurlan müəllim. Müzakirəyə keçirik, yazılanlar var. Bəxtiyar Əliyev. Bəxtiyar müəllim, buyurun.

**Bəxtiyar Əliyev**. Hörmətli xanım sədr, hörmətli deputatlar, əlbəttə, müzakirə olunan qanun layihəsinə təklif edilən dəyişiklik olduqca əhəmiyyətlidir, aktualdır və yaşıl enerjiyə keçidlə bağlı bu istiqamətdə görülən bütün işlər təqdirəlayiqdir. Eyni zamanda, bu prosedurların sadələşdirilməsi də olduqca vacib məsələdir. Bununla bağlı mən bu gün hələ də aktuallığını saxlayan bir məsələyə toxunmaq istərdim. Şəhərsalma və Tikinti Məcəlləsində və digər qanunvericilik aktlarında da buna diqqət ayrılsın.

Vaxtı ilə biz Milli Məclisdə müzakirə etdik ki, tikilməkdə olan çoxmərtəbəli binalarda mənzil alan şəxslərlə müqavilələr bağlanan zaman həmin müqavilələr daşınmaz əmlakın dövlət reyestrində qeydiyyata alınsın və gələcəkdə vətəndaşları narahat edəcək bir çox problemli məqamlar yaşanmasın. Amma çox təəssüflər olsun ki, bu gün hələ də bu məsələ öz həllini tapmayıb. Bir çox tikinti şirkətləri vətəndaşların çox böyük etimadını, inamını qazanıbdır. Onlar bu istiqamətdə bütün işlərini çox dürüst aparırlar və özləri ilk növbədə əmlakın daşınmaz əmlak reyestrində qeydiyyat məsələlərini həll edirlər. Vətəndaşla bağlanan həmin müqavilələr də mənzillərin 2-3 və daha çox şəxsə satılmamasına və yaxud o mənzillərə sonradan Daşınmaz Əmlakın Dövlət Reyestri Xidmətindən çıxarışların alınmasında heç bir problemlə üzləşməmələrinə kömək edir. Amma elə şirkətlər də var ki, onlar dəfələrlə məhkəməlik olub, bu məsələlərlə bağlı cinayət işləri qaldırılıb. Amma bu əməlləri davam etdirənlər hələ də var

və eyni zamanda, Dövlət Şəhərsalma və Arxitektura Komitəsi tərəfindən təsdiq edilmiş layihələrə tikinti prosesində müəyyən dəyişikliklər edirlər ki, bunlar da vətəndaşlar tərəfindən haqlı olaraq narazılıqla qarşılanır. Əvvəl bağlanılmış müqavilələrdə göstərilmiş və komitə tərəfindən təsdiq edilmiş layihələrlə Daşınmaz Əmlakın Dövlət Reyestri Xidmətində bu mənzillər qeydiyyata alınan zaman uyğunsuzluqlar əmələ gəlir. Çünki istər Mənzil Məcəlləsində, istərsə də Nazirlər Kabinetinin təsdiq etdiyi normalarda mənzillərin ölçüləri daxili divarlar çərçivəsində və bəzi qurğular nəzərə alınmamaqla ölçülməlidir. Amma çox təəssüflər olsun ki, bəzi şirkətlər prosesi tamamilə bu qaydalara və qanunlara zidd olaraq həyata keçirirlər.

Ona görə də çox yaxşı olardı ki, tikintisinə icazə verilmiş və tikintisinə başlanılmış çoxmənzilli yaşayış binalarında əgər vətəndaşlarla hər hansı bir mənzillə bağlı müqavilə imzalanıbsa, o müqavilələr Daşınmaz Əmlakın Dövlət Reyestri Xidmətində də ilkin qeydiyyata alınsın. Bu, imkan verəcək ki, komitə tərəfindən təsdiq edilmiş layihələrin ölçülərinə və arxitekturasına sonradan tikinti şirkəti heç bir dəyişiklik edə bilməsin və vətəndaşın hüquqları əsaslı olaraq qorunsun. Diqqətinizə görə təşəkkür edirəm. Çox sağ olun.

**Sədrlik edən.** Sağ olun. Qüdrət Həsənquliyev. Buyurun.

**Qüdrət Həsənquliyev**. Hörmətli sədr, hörmətli həmkarlar, bu edilən dəyişiklik çox mütərəqqidir. Mən bu məsələni müdafiə etməklə yanaşı, həm də təklif edirəm ki, biz Şəhərsalma və Tikinti Məcəlləsinə yenidən baxaq. Ümid edirəm ki, 2025-ci il ölkəmizdə böyük islahatlar ili olacaq və o islahatlar çərçivəsində dövlət hakimiyyətinin həyata keçirilməsindəki ifrat mərkəzləşmə müəyyən mənada aradan qaldırılacaq. Fikrimcə, Dövlət Səhərsalma

və Arxitektura Komitəsi yalnız şəhərlərin, qəsəbələrin baş planlarını təsdiq etməlidir, tikintiyə icazəni isə yerli dövlət hakimiyyəti orqanları verməlidir. Bakıda güclü yağış yağanda biz görürük ki, Binəqədi, Suraxanı, Sabunçu rayonlarında o birmərtəbəli evlərin həyətləri, – onların çoxunun heç sənədləri yoxdur, – su ilə dolur, insanlar nə qədər böyük əziyyətlərlə, məhrumiyyətlərlə üz-üzə qalır.

Hörmətli sədr, bir rəqəmi diqqətinizə çatdırım ki, bu il keçən illə müqayisədə ölkədə mənzil tikintisi 36,5 faiz azalıb. Çünki tikinti şirkətləri müraciət edirlər ki, tikintiyə icazə almaq xeyli dərəcədə müşkülə çevrilib. Mən bunu bu zərurətdən çıxış edərək söyləyirəm. Xatırlayırsınızsa, büdcə müzakirələri zamanı da çıxışımda söylədim ki, Bakıda bir çox binaların zirzəmiləri su ilə dolub, o cümlədən də mənim millət vəkili seçildiyim Xətai rayonu ərazisində. Mən bu barədə müvafiq dövlət orqanlarına da müraciət etmişəm. Amma çox təəssüf ki, vəziyyəti aradan qaldırmaq mümkün deyil, o binaların həyətlərinin abadlaşdırılmasına ciddi ehtiyac var. Həmin o 9 mərtəbəli, 5 mərtəbəli binaların çoxunun giriş qapıları da yoxdur. İnsanlar bundan da narahatçılıq keçirirlər ki, saat 5-dən sonra hava qaralır və o binaların da giriş qapıları yoxdur. Mən hesab edirəm, həmin binaların da tikinti şirkətlərinə verilməsinə çox böyük ehtiyac var ki, o binalar yenidən tikilsin.

Hörmətli Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri Anar müəllimin də dünən mətbuata verdiyi açıqlamada qeyd edilib ki, hazırda Bakı şəhərində 200-ə qədər qəzalı bina var. Yəni bu binaların da qısa müddətdə sökülüb yerində yeni və müasir tipli binaların tikilməsi üçün addımlar atılmalıdır. Əlbəttə, görülən işlərin üzərinə

kölgə salmaq fikrindən çox uzağam, müəyyən işlər görülür. Amma bu işlər həddindən artıq ləng gedir. Sahibkarlar bəzən illərlə gözləməli olurlar ki, onların müraciətlərinə hansısa formada cavab veriləcək, yoxsa yox. Ona görə bu məsələnin aktuallığını nəzərə alaraq həm Milli Məclis rəhbərliyinin, həm də hökumətin diqqətinə çatdırılmasını özümə borc bildim. Diqqətinizə görə çox sağ olun, qanun layihəsinin lehinə səs verəcəyəm.

**Sədrlik edən.** Sağ olun, Qüdrət müəllim. Nurlan müəllim, buyurun, sözünüz var?

**Nurlan Həsənov.** Təşəkkür edirəm, hörmətli Sahibə xanım. Hörmətli Bəxtiyar müəllimin qeyd etdiyi məsələ ilə bağlı bildirmək istəyirəm ki, 2017-ci ildə qanunvericiliyimizə təminat qeydiyyatı anlayışı gətirilmişdir. Bu mexanizm bir mənzilin bir neçə şəxsə satılması probleminin aradan qaldırılması üçün nəzərdə tutulmuşdur. Lakin hazırda praktikada bu mexanizmin tətbiqi mümkün deyil. Qeyd edim ki, 2022-ci il dekabrın 4-də cənab Prezident İlham Əliyev tərəfindən sərəncam imzalanmışdır və "Korrupsiyaya qarşı mübarizənin gücləndirilməsinə dair 2022–2026-cı illər üçün Milli Fəaliyyət Planı" təsdiq edilmişdir. Həmin sənədin 1.8-ci bəndində İqtisadiyyat Nazirliyinə tikilməkdə olan, tikilmiş, lakin istismara qəbul edilməmiş çoxmənzilli binalarda mənzillərə dair verilmiş hüquqmüəyyənedici sənədlərin vahid informasiya bazasının yaradılması tapşırılmışdır. Düşünürəm ki, yaxın gələcəkdə bu mexanizm işlək vəziyyətdə olacaq.

**Sədrlik edən.** Məlumatınıza görə çox sağ olun. Hörmətli həmkarlar, daha çıxış etmək istəyən yoxdur. Mən qanun layihəsini səsə qoyuram, xahiş edirəm, münasibət bildirin.

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.48 dəq.) |
| Lehinə | 110 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 110 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi birinci oxunuşda qəbul edildi.

İndi isə növbəti məsələyə keçirik. Bu, Miqrasiya Məcəlləsində və “Dövlət rüsumu haqqında” Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Layihəyə Hüquq siyasəti və dövlət quruculuğu komitəsində baxılmışdır. Məsələyə dair məlumat vermək üçün, Əli müəllim, mən yenə də Sizə söz verirəm. Buyurun.

**Əli Hüseynli**. Çox sağ olun. Hörmətli sədr, hörmətli həmkarlar, bir neçə ay bundan əvvəl, daha dəqiq desək, iyun ayında cənab Prezident tərəfindən yüksəkixtisaslı əcnəbilərin Azərbaycan Respublikasında əmək fəaliyyətinə cəlb edilməsi ilə bağlı tədbirlər haqqında çox vacib bir sərəncam verilmişdir. Həmin sərəncamda onun icrası ilə bağlı da tapşırıqlar verilib. Bu tapşırıqların bir hissəsi Nazirlər Kabinetinə aiddir. Gələcəkdə yüksəkixtisaslı miqrantın meyarları, o cümlədən qiymətləndirməsi ilə bağlı qərar olacaq. Bu gün bizim üzərimizə düşən vəzifə isə “yüksəkixtisaslı miqrant” anlayışını Miqrasiya Məcəlləsinə gətirmək və eyni zamanda, gələcəkdə onu gözləyəcək qabaqlayıcı tədbirləri, daha dəqiqi, güzəştləri burada qeyd etməkdir. Yəni mahiyyət həmin o yüksək-

ixtisaslı miqrant ölkəmizə gələrkən Miqrasiya Məcəlləsində onun üçün nəzərdə tutulmuş güzəştləri, şərtləri bu qanunda ehtiva etməkdir.

Diqqətinizə görə təşəkkür edirəm. Hesab edirəm, çox əhəmiyyətli layihədir, gələcəyə fokuslanmış bir sənəddir və əminəm ki, həmkarlarım da dəstəkləyəcək.

**Sədrlik edən.** Əli müəllim, çox sağ olun. Qanun layihəsinə İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində də baxılmışdır. Azər müəllim, xahiş edirəm, komitənin rəyini bildirin.

**Azər Əmiraslanov**. Hörmətli xanım sədr, hörmətli deputat həmkarlar, qanun layihəsi barədə hörmətli həmkarım Əli Hüseynli mahiyyəti üzrə məlumat verdi. Sadəcə, onu əlavə etmək istərdim ki, bu layihə heç də yüksəkixtisaslı xarici mütəxəssislərin ölkəmizdə əmək fəaliyyətinə cəlb edilməsi üçün hüquqi əsaslar yaratmır. Belə bir hüquqi əsas artıq yaradılıb. Əlavə olaraq dövlət başçısının sərəncamı ilə bu cür mütəxəssislərin cəlb edilməsi imkanlarını genişləndirmək məqsədi ilə yüksəkixtisaslı miqrant proqramı təsis edilmişdir. Layihə, sadəcə olaraq, prosesin sürətləndirilməsi məqsədi ilə miqrantlara bu cür güzəştlər təklif edir. Bu, əmək bazarının və müasir iqtisadi inkişafın bugünkü reallıqları və eyni zamanda, yeni keyfiyyət mərhələsi ilə bağlıdır.

Dünyada investisiyalar, bazarlar, innovativ texnologiyalar və yüksəkixtisaslı mütəxəssislər uğrunda mübarizə getdiyi bir vaxtda Azərbaycan da bu prosesdən kənarda qala bilməz. Onu da nəzərə almaq lazımdır ki, ixtisaslı kadr idxalına şərait yaradılması eyni ilə ölkəmizdən də ixtisaslı kadr ixracı fonunda baş verir. İşçi qüvvəsinin sərbəst hərəkəti bütün kateqoriyalar üzrə, o cümlədən

yüksəkixtisaslı mütəxəssislərin idxalı və ixracı bazar iqtisadiyyatının bir sistem kimi mahiyyətindən irəli gələn təbii bir prosesdir. Ümumiyyətlə, yüksəkixtisaslı miqrantların ölkəmizə cəlb edilməsi üçün bütün prosedurların asanlaşdırılması əmək bazarında rəqabət mühiti yaratmaqla həm də ölkəmizin iqtisadiyyatında keyfiyyət dəyişikliklərinə və onun rəqabət qabiliyyətinin yüksəldilməsinə şərait yaradır. Komitə olaraq layihənin qəbulunu vacib və əhəmiyyətli hesab edir, həmkarlarımız tərəfindən birinci oxunuşda dəstəklənməsini xahiş edirəm. Sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Azər müəllim. Çıxış etmək istəyən var. Qüdrət Həsənquliyev. Qüdrət müəllim, buyurun.

**Qüdrət Həsənquliyev**. Çox sağ olun, hörmətli sədr. Bzejinskinin böyük bir "Şahmat taxtası" əsəri var. Orada qeyd edilir ki, yaxın vaxtlarda Amerika Birləşmiş Ştatlarını iqtisadi baxımdan heç kim üstələyə bilməyəcək. Çünki ABŞ xüsusi proqram əsasında burada təhsil alan istedadlı gənclərin həmin ölkədə qalıb işləməsi üçün çox əlverişli şərait yaradır.

Mən bunu ona görə xatırladım ki, – burada həm hörmətli Əli müəllim, həm də Azər müəllim layihə haqqında ətraflı məlumat verdilər, – düşünürəm, biz ilk növbədə çalışmalıyıq, yüksəkixtisaslı kadrlar ölkəmizi tərk edib getməsinlər. Bunun üçün də mən hətta bəzi dövlət müəssisələrinin tanıdığım rəhbərləri ilə məsləhətləşmişəm. Söhbət əsnasında onlar qeyd edirlər ki, biz müəyyən həddən artıq maaş verə bilmirik və ona görə də yüksəkixtisaslı qaynaqçılar belə ölkəni tərk edib gedirlər. Ona görə ki, həmin işə görə başqa ölkələrdə onlara 3-4 dəfə daha artıq maaş verilir. Mən nəyi təklif edirəm?

Əlbəttə, bu dəyişikliyi alqışlayıram və dəstəkləyirəm. Amma bununla yanaşı, hesab edirəm ki, bizim Nazirlər Kabineti də yüksəkixtisaslı işlər, yəni sahələr hansılardısa, onun siyahısını çap etməlidir və o sahələrdə çalışan bizim yerli mütəxəssislər üçün dövlət və ya özəl sektorda olmasından asılı olmayaraq müəyyən güzəştlər nəzərdə tutulmalıdır. Mənə müraciət edənlər bildirirlər ki, onlar da, məsələn, güzəştli ipotekadan istifadə edə bilsəydilər, çox yaxşı olardı. Bu, çox böyük stimul olardı ki, o insanlar ölkəni tərk edib getməsinlər. Çox sağ olun, dəyişikliklərə səs verəcəyəm.

**Sədrlik edən.** Sağ olun. Hörmətli həmkarlar, mən qanun layihəsini səsə qoyuram, buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 12.54 dəq.) |
|---|---|
| Lehinə | 108 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 109 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi birinci oxunuşda qəbul edildi.

Növbəti məsələ "Azərbaycan Respublikasında mənzil fondunun özəlləşdirilməsi haqqında" Qanunda və digər 9 qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Layihəyə İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində baxılmışdır. Azər müəllim, xahiş edirəm, qanun layihəsi haqqında məlumat verin. Buyurun.

**Azər Əmiraslanov**. Təşəkkür edirəm. Hörmətli xanım

sədr, hörmətli deputat həmkarlar, göründüyü kimi, bu sənəd 10 qanunda dəyişiklik edilməsini nəzərdə tutur. Bu cür layihələr ilk baxışdan texniki və ya uyğunlaşdırma xarakterli görünsə də, çox mühüm dövlət siyasətinin islahatlar prosesini tamamlayır. Söhbət ilk növbədə institusional islahatlardan gedir. Bu islahatlara təkan verən mühüm sənədlərdən biri Azərbaycan Respublikası Prezidentinin 2020-ci ildə təsdiq etdiyi "Açıq hökumətin təşviqinə dair 2020–2022-ci illər üçün Milli Fəaliyyət Planı"dır. Fəaliyyət planında dövlət xidmətinin göstərilməsi üçün zəruri olan sənəd və ya məlumat digər dövlət qurumunda mövcud olduğu halda, həmin sənədin və məlumatın vətəndaşdan tələb edilmədən Elektron Hökumət İnformasiya Sistemi vasitəsi ilə müvafiq dövlət qurumundan alınmasının təmin edilməsi prinsip kimi müəyyən edilib. Bu prinsipin sahəvi normativ hüquqi aktlarda təsbit edilməsi, habelə bu prinsipə əsaslanan elektron xidmətlərin sayının artırılması nəzərdə tutulmuşdur.

Hörmətli həmkarlar, müzakirə etdiyimiz qanun layihəsi ilə qeyd edilən tələb və prinsiplər adıçəkilən sahəvi qanunlarda əks olunmaqla vətəndaşların sənəd, məlumat toplamaq və təqdim etməklə bağlı öhdəliklərinin və vaxt itkisinin azaldılmasına şərait yaradır, vətəndaş məmnunluğunun artırılmasını təmin edir, qurumlararası elektron inteqrasiyanın güclənməsinə, elektron hökumətin inkişafına xidmət edir. Qeyd edilənləri nəzərə alaraq, hörmətli həmkarlarımızdan layihənin birinci oxunuşda dəstəklənməsini xahiş edirəm.

**Sədrlik edən.** Azər müəllim, çox sağ olun. Hörmətli həmkarlar, bu qanun layihəsinə 3 ayrı komitədə də baxılıb. Birinci komitə Müdafiə, təhlükəsizlik və korrupsiya ilə

mübarizə komitəsidir. Arzu müəllim, xahiş edirəm, məlumat verin.

**Arzu Nağıyev**. Təşəkkür edirəm, xanım sədr. Hörmətli Azər müəllim bu haqda ətraflı məlumat verdi. Bizim də sahəvi olaraq komitəmizin profilinə uyğun olan bir qanun layihəsidir. “Xidməti və mülki silah haqqında” Azərbaycan Respublikasının Qanununda edilən dəyişiklik mülki silahın əldə edilməsi üçün həmin qanunun 9-cu maddəsinə uyğun olaraq, lazımi sənədlərin Elektron Hökumət İnformasiya Sistemi vasitəsi ilə təmin olunmasıdır. Yəni əvvəllər istər şəxsiyyət vəsiqəsini, istərsə də digər sənədlər təqdim ediləndə vətəndaşın özü müraciət edirdi. İndi artıq mülki silahlarla, digər xidməti silahlarla bağlı arayışlar elektron formada digər qurumlardan əldə edilə bilər. Layihəyə komitəmizdə baxılmış və plenar iclas üçün tövsiyə edilmişdir. Səs verməyinizi xahiş edirəm.

**Sədrlik edən.** Çox sağ olun. Qanun layihəsinə Hüquq siyasəti və dövlət quruculuğu komitəsində də baxılmışdır. Komitənin rəyini bildirmək üçün mən hörmətli Elşən Musayevə söz verirəm. Elşən müəllim, buyurun.

**Elşən Musayev,** *Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsi sədrinin müavini.*

Təşəkkür edirəm, xanım sədr. Komitənin rəyi müsbətdir. Sadəcə, qısa olaraq bildirim ki, layihənin bizim komitənin profilinə aid hissəsinin əsas məğzi sırf hüquqi tənzimləmələr ilə bağlıdır.

Bir də, hörmətli Sahibə xanım, təklif etmək istəyirəm ki, fasiləsiz işləyək.

**Sədrlik edən.** Çox sağ olun. İndi məsələni qurtaraq, sonra mən hörmətli həmkarlarımızdan soruşaram, razıdırlar, yoxsa yox?

Qanun layihəsinə İnsan hüquqları komitəsində də baxılıb. Zahid müəllim, buyurun.

**Zahid Oruc,** *Milli Məclisin İnsan hüquqları komitəsinin sədri.*

Təşəkkür edirəm, hörmətli sədr. Mahiyyətcə biz orada “Media haqqında” Qanunla bağlı məsələni müzakirə etmişik. Yəni Elektron Hökumət İnformasiya Sistemi üzrə məlum məsələləri tənzimləyir. Rəy müsbətdir, çox sağ olun.

**Sədrlik edən.** Sağ olun. Çıxış etmək istəyən yoxdur. Mən qanun layihəsini səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.59 dəq.) |
|---|---|
| Lehinə | 110 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 110 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi birinci oxunuşda qəbul edildi.

Hörmətli həmkarlar, Elşən müəllim təklif etdi ki, fasiləsiz işləyək. Hamı razıdır?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Lap yaxşı. İndi isə 9-cu məsələyə keçirik.

Bu, Əmək Məcəlləsində, Miqrasiya Məcəlləsində, “Əhalinin sağlamlığının qorunması haqqında” Qanunda və digər 14 qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Layihəyə Əmək və sosial siyasət komitəsində baxılmışdır. Məsələyə dair məlumat vermək üçün mən

yenə də hörmətli Musa Quliyevə söz vermək istəyirəm. Musa müəllim, buyurun.

**Musa Quliyev.** Çox sağ olun, hörmətli xanım sədr. Hörmətli millət vəkilləri. Qeyd olunan Əmək Məcəlləsinə və digər 13 qanuna dəyişikliklə bir az bundan əvvəl qəbul etdiyimiz 8-ci məsələdə olan dəyişikliklərlə mahiyyətcə eynidir. Elektron hökumət çərçivəsində dövlət xidmətlərinin rəqəmsallaşdırılma arealının genişləndirilməsinə xidmət edir. Belə ki, bu qanun qəbul olunandan sonra əmək və əhalinin sosial müdafiəsi, miqrasiya, səhiyyə, təhsil, yol hərəkətinin təşkili və iqtisadiyyat sahələri üzrə bir çox xidmətlərin göstərilməsi, sənədlərin verilməsi Elektron Hökumət İnformasiya Sistemi üzərindən həyata keçiriləcəkdir. Bu informasiya sistemi üzərindən verilən bütün məlumatlar, arayışlar, sənədlər sənədin əsli kimi qəbul olunacaq və inzibati icraat həyata keçirən zaman artıq sənədin əsli kimi veriləcəkdir.

Bu dəyişikliklərin də qəbul olunması vətəndaş məmnunluğunun artırılmasına xidmət edir. Məmur–vətəndaş münasibətlərinin, təmaslarının azalmasına, xidmətin keyfiyyətinə müsbət təsir edəcək, eyni zamanda, xərclərin azalmasına xidmət edəcəkdir. Qanun layihəsi komitədə ətraflı müzakirə olunub. Konseptual baxımdan birinci oxunuş üçün Milli Məclisin plenar iclasına tövsiyə edilibdir. Deputat həmkarlarımdan qanun layihəsinə səs verməyi xahiş edirəm. Diqqətinizə görə sağ olun.

**Sədrlik edən.** Sağ olun, Musa müəllim. Hörmətli həmkarlar, bu qanun layihəsinə daha 5 komitədə baxılıb. Mən elə bir-bir komitə nümayəndələrindən soruşacağam. Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin rəyini bildirmək üçün, Elşən müəllim, Sizə söz verirəm. Bu-

yurun.

**Elşən Musayev.** Təşəkkür edirəm, xanım sədr. Komitənin rəyi müsbətdir, səsə qoyulmasını xahiş edirik.

**Sədrlik edən.** Çox sağ olun. Səhiyyə komitəsinin rəyini bildirmək üçün komitənin sədri hörmətli Əhliman müəllimə söz vermək istəyirəm. Buyurun.

**Əhliman Əmiraslanov,** *Milli Məclisin Səhiyyə komitəsinin sədri.*

Hörmətli Sahibə xanım, hörmətli həmkarlar, "Əhalinin sağlamlığının qorunması haqqında" və "Tibbi sığorta haqqında" qanunlarda təklif edilən dəyişikliklər mütərəqqi dəyişikliklərdir. Belə ki, qanun layihəsində vətəndaşların sağlamlığını əks etdirən tibbi sənəd, tibbi sığorta şəhadətnaməsi, tibb müəssisələrinə göndərişlər Elektron Hökumət İnformasiya Sistemi üzərindən həyata keçiriləcəkdir. Bu da əhaliyə göstərilən tibbi xidmətin çevikliyini artırmaqla keyfiyyətinin yüksəlməsinə xidmət edəcəkdir. Qanun layihəsinə səs verməyinizi xahiş edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Əhliman müəllim. Zahid müəllim, İnsan hüquqları komitəsinin rəyini bildirin. Buyurun.

**Zahid Oruc.** Hörmətli sədr, insan hüquqları baxımından kağız daşıyıcıları erasını arxada qoyub, xidmətləri elektronlaşdırmaq yalnız müsbət hadisədir. Komitə layihənin lehinədir. Sağ olun.

**Sədrlik edən.** Çox sağ olun. İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin rəyini bildirmək üçün, Azər müəllim, Sizə söz verirəm. Buyurun.

**Azər Əmiraslanov**. Hörmətli xanım sədr, təqdim edilən qanun layihəsi komitəmiz tərəfindən də dəstəklənir, etirazımız yoxdur.

**Sədrlik edən.** Çox sağ olun. 5-ci komitə Elm və təhsil komitəsidir. Hörmətli Anar İsgəndərov, buyurun.

**Anar İsgəndərov,** *Milli Məclisin Elm və təhsil komitəsinin sədri.*

Hörmətli xanım sədr, hörmətli həmkarlar. Qanun layihəsi Elm və təhsil komitəsində müzakirə olunmuşdur, uyğunlaşdırma xarakteri daşıyır. İnsanların rahatlığını təmin etmək üçün bu uyğunlaşdırmaya böyük ehtiyac var. Komitənin rəyi müsbətdir, səsə qoyulmasını xahiş edirəm.

**Sədrlik edən.** Çox sağ olun. Çıxış etmək istəyən yoxdur. Mən qanun layihəsini səsə qoyuram. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 13.04 dəq.) |
|---|---|
| Lehinə | 108 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 108 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi birinci oxunuşda qəbul edildi.

Hörmətli həmkarlar, biz sonuncu məsələyə çatdıq. Bu, "Qaz təchizatı haqqında" Qanunda və digər 5 qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Onu da deyim ki, bu məsələ ilə əlaqədar Azərbaycan Respublikası maliyyə nazirinin müavini hörmətli Azər Bayramov da buradadır. Azər müəllim, salamlayırıq Sizi.

Hörmətli həmkarlar, layihəyə İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində baxılmışdır. Azər müəllim, xahiş

edirəm, məsələyə dair məlumat vermək üçün, buyurun.

**Azər Əmiraslanov.** Hörmətli xanım sədr, hörmətli deputat həmkarlar, qanun layihəsinin şərhini dövlət rüsumlarından başlamaq məsələnin mahiyyəti barədə natamam təsəvvür yarada bilər. Buna görə də bir qədər əvvələ qayıtmaq istərdim. Xüsusi olaraq vurğulamaq lazımdır ki, son illərdə ölkəmizdə iqtisadi islahatların yeni mərhələsinə başlanılıb. Milli iqtisadiyyatımızda struktur dəyişiklikləri dərinləşir və bunun fonunda iqtisadiyyatın dövlət tənzimlənməsi, dövlətin iqtisadiyyatdakı funksiyaları da köklü dəyişikliyə məruz qalır. Belə ki, hələ VI çağırış Milli Məclisdə strateji sahələrdə liberallaşmanı nəzərdə tutan çox ciddi islahat xarakterli qanunlar qəbul edilmişdir. Bunlara misal olaraq "Elektroenergetika haqqında", "Qaz təchizatı haqqında" qanunları, "Lisenziyalar və icazələr haqqında" Qanunda dəyişiklikləri və sairi göstərmək olar. Bu qanunlar strateji sahələrdə özəl sektorun fəaliyyətinə "yaşıl işıq" yandırır, belə bir şəraitdə dövlətin təsərrüfat funksiyaları inzibati funksiyalarla əvəz edilir. Bu halda dövlətin fəaliyyəti strateji sahələrə daxil olan sahibkarlıq subyektlərinə icazə və ya lisenziya verməklə məhdudlaşır.

Əvvəlki qanunlar qeyd etdiyim fəaliyyətlər üçün həm icazəni verən orqanları, həm də bu icazələrin siyahısını müəyyən etdiyinə görə sonrakı mərhələdə icazələri hüquqi hərəkət kimi nəzərə alıb onlar üçün rüsum məbləği müəyyən etmək zərurəti yaranır. Müzakirə etdiyimiz qanun layihəsi həm bu məqsədə, həm də strateji sahələrdə fəaliyyətin yeni prinsiplər əsasında dövlət tənzimlənməsinə xidmət edir. Layihədə nəzərdə tutulan rüsum inzibatçılığı vətəndaş məmnunluğunu təmin edəcək, lakin vətəndaşların cəlb edildiyi dövlət rüsumları bu qanun layihəsinin

predmeti deyil. Layihə vətəndaş üçün nə yeni rüsum tətbiqini, nə də rüsum artımını nəzərdə tutmur. Adından da göründüyü kimi, qanun layihəsi qəbul edildikdən sonra dövlətin strateji sahələrə münasibətdə tənzimləyici funksiyasının tam icrası üçün hüquqi əsas yaranmış olacaqdır.

Bir də, hörmətli xanım sədr, mən qeyd etmək istərdim ki, təqdim edilən qanun layihəsinin ən vacib məqamlarından biri dövlət rüsumu inzibatçılığının daha da yaxşılaşdırılmasıdır. Bu yaxşılaşmanı təmin edən məhz bu sahədə dövlət informasiya sisteminin, elektron rüsum sisteminin qurulmasıdır. Bu sistemin reallaşdırılması dövlət rüsumu inzibatçılığı sahəsində boşluqları aradan qaldıracaq, bu sahədə hesabatlılığı təmin edəcək, elektron uçot nəzarətinə imkan verəcək, dövlət rüsumları ilə bağlı proqnozlaşdırılmanın keyfiyyətini yüksəldəcək və bütövlükdə, dövlət rüsumları üzrə daxilolmaları izləməyə imkan verəcəkdir.

Bir məqamı da qeyd etmək lazımdır ki, bu sistem həm də vətəndaşların məmnunluğunu təmin edəcək. Belə ki, artıq ödənilmiş və ya düzgün tutulmamış rüsumun qaytarılma müddəti iki dəfə azaldılacaqdır. Beləliklə, bütün bu sistemin nizama salınması həm də dövlət rüsumu üzrə büdcə daxilolmalarının artmasına müsbət təsir göstərəcəkdir.

Burada bir məqamı qeyd etmək istərdim ki, biz dövlət rüsumlarının artırılması hesabına deyil, məhz dövlət rüsumları ilə bağlı idarəetmə, uçot, hesabatlılıq və bütövlükdə, inzibatçılığın yaxşılaşdırılması hesabına dövlət rüsumları üzrə artımın proqnozlaşdırılmasını mümkün hesab edirik.

Digər bir məqam da bundan ibarətdir ki, yaradılacaq olan informasiya sistemi özü də əlavə xərclər tələb edir. Məhz bu sistemin özünün idarə edilməsini təmin etmək və onun istismarını reallaşdırmaq üçün nəzərdə tutulan və

tətbiq edilən elektron bildirişlər üzrə gələcəkdə cənab Prezident tərəfindən müəyyən ediləcək dövlət orqanı üçün xidmət haqqı müəyyən edilir.

Bütövlükdə, nəzərdə tutulan layihənin əsas məqamları bundan ibarətdir. Biz bunu olduqca mütərəqqi bir layihə hesab edirik. Bu, yeni mərhələdə dövlətin funksiyalarının effektiv icrasına təminat verir və hörmətli həmkarlarımızdan bu layihənin birinci oxunuşda dəstəklənməsini xahiş edirəm. Təşəkkür edirəm.

**Sədrlik edən.** Azər müəllim, çox sağ olun, ətraflı məlumat verdiniz. Hörmətli həmkarlar, qanun layihəsinə Təbii ehtiyatlar, energetika və ekologiya komitəsində də baxılmışdır. İndi komitənin sədri hörmətli Sadiq Qurbanova söz verirəm. Sadiq müəllim, buyurun, komitənin rəyini bildirin.

**Sadiq Qurbanov,** *Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri.*

Təşəkkür edirəm, dəyərli Sahibə xanım. Azər müəllim kifayət qədər geniş və ətraflı məlumat verdi. Artıq əlavə şərhə ehtiyac duyulmur. Komitəmiz tərəfindən birmənalı olaraq dəstəklənir və deputat həmkarlarımı qanun layihəsinin lehinə səs verməyə dəvət edirəm. Sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Sadiq müəllim. Mən baxıram, yazılan yoxdur. Ona görə də qanun layihəsini səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.11 dəq.) |
|---|---|
| Lehinə | 105 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 107 |

Nəticə: Qəbul edildi

Çox sağ olun, qanun layihəsi birinci oxunuşda qəbul edildi.

Hörmətli həmkarlar, bizim iclasımız bitdi, mən hamıya təşəkkür edirəm. Növbəti iclasımız ayın 16-da olacaq. Sağ olun.

# EDİLMƏMİŞ ÇIXIŞIN MƏTNİ

***<u>13 dekabr 2024-cü il</u>***

**Kamran Bayramov.** İlk növbədə, müzakirəmizə birinci oxunuşda çıxarılmış Diplomatik xidmət haqqında qanun layihəsi bu qədər əhatəli və hərtərəfli hazırlandığına görə aidiyyəti dövlət qurumlarına təşəkkür etmək istərdim.

Hazırda qüvvədə olan "Diplomatik xidmət haqqında" Qanunun qəbulundan ötən dövr ərzində dövlət qulluğu ilə bağlı qanunvericiliyə xeyli dəyişiklik edilib, eyni zamanda, dövlət qulluğunun xüsusi növü olan diplomatik xidmət sahəsi də xeyli genişlənib və düşünürəm ki, bu səbəbdən də yeni qanunun qəbul olunmasına zərurət yaranıb.

Heç kim üçün sirr deyil ki, Azərbaycanın 44 günlük Vətən müharibəsində tarixi Zəfər qazanması, ərazi bütövlüyünü bərpa etməsi, bütün ərazisində suverenliyini tam təmin etməsi və regionda yeni reallıqlar yaratması bəzi dövlətlərin və beynəlxalq təşkilatların ölkəmizə mü
bətini dəyişib, bəziləri bu vəziyyətlə barışa bilm
müxtəlif təxribatlara əl atırlar. Bu təxribatların qarşısının alınması, regionda real vəziyyətin və həqiqətlərin düzgün, vaxtında çatdırılması diplomatik xidmət orqanlarımızın fəaliyyətinin səmərəsinin artırılmasını, onların peşə səviyyəsinin yüksəldilməsini, Xarici İşlər Nazirliyi sisteminin təkmilləşdirilməsini tələb edir. Bu hədəflərə nail olmaq üçün Diplomatik xidmət haqqında yeni qanunun qəbul olunması ən əhəmiyyətli və düzgün addım hesab olunmalıdır.

Layihədə diplomatik xidmət orqanlarının fəaliyyətinin bütün xüsusiyyətləri nəzərə alınır, fəaliyyət istiqamətləri

və funksiyaları geniş tənzimlənir, diplomatik xidmətin hüquqi əsasları və təşkili qaydaları müəyyən edilir, diplomatik xidmət orqanı əməkdaşlarının və onların ailə üzvlərinin maddi təminatı və sosial müdafiəsi ilə bağlı məsələlər öz əksini tapır.

Hesab edirəm ki, bu qanunun qəbulu xaricdən ölkəmizə qarşı törədilən təxribatların, siyasi, diplomatik, hüquqi və ideoloji təsirlərin qarşısının alınmasına, qüdrətli dövlətimizin müstəqil və tarazlı xarici siyasət kursunun davam etdirilməsinə də öz töhfəsini verəcəkdir.

Eyni zamanda, bu qanun layihəsinin daha çox diplomatik xidmət orqanlarının fəaliyyətinin təmin edilməsinə və səmərəliliyinin artırılmasına yönəldildiyini nəzərə alsaq, gələcəkdə xarici siyasət sahəsində milli maraqlara baxışı, xarici siyasətin baza prinsiplərini, strateji hədəflərini, əsas vəzifələrini və prioritet istiqamətlərini müəyyən edən və strateji planlaşdırma sənədi kimi çıxış edən xarici siyasət konsepsiyasının hazırlanmasını təklif edərdim.

# MÜNDƏRİCAT

13 dekabr 2024-cü il ............................................................ 3
Edilməmiş çıxışın mətni ..................................................... 85

Yeddinci çağırış

AZƏRBAYCAN RESPUBLİKASI
MİLLİ MƏCLİSİ İCLASLARININ

PROTOKOLLARI
VƏ
STENOQRAMLARI

Birinci sessiya
Payız

15-ci cild

13 dekabr 2024-cü il

Buraxılışına məsul
***Hafiz Babayev***

Azərbaycan Respublikasi Milli Məclisinin mətbəəsi.
Bakı, Azad Mirzəyev küçəsi, 235.
Format 60x84 1/16. Çap vərəqi 5,5. Sifariş 9. Tiraj 150.